“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



Qəzet 1932-ci ildən çıxır № 1-2 (6881-6882) 15 fevral 2024-cü il

## *İlham Əliyev: “Xankəndidə qutuya atdığım sadəcə bülleten deyildi. Erməni separatçılarının tabutuna vurulan son mismar idi”.*

## İlham Əliyev Xankəndidə səs verdi



**Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı Seçki Dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər.**

## QALİB XALQIMIZ QALİB LİDERİMİZİ SEÇDİ

**7 fevral 2024-cü il ölkəmizdə növbədənkənar prezident seçkiləri günü idi. Hər kəsin seçmək hüququ olduğu kimi seçilmək hüququ da vardır. Buna görə də özlərini prezident kürsüsündə görmək istəyən bir qrup insan da seçilmək hüququndan istifadə etmək istədi. Prezidentliyə namizədliklərini verdilər. Seçim ixtiyarı isə xalqın idi. Xalq kimi özünə rəhbər görmək istəyirdi? Əlbəttə ki, xalqın inamını, güvənini, etibarını qazanmış şəxsi! 20 il ərzində xalqa ləyaqətlə xidmət göstərmiş, söz, siyasət və hərb meydanında öz iradəsini diqtə etdirmiş və qalib Ali Baş Komandan kimi adını tarixin qızıl səhifələrinə yazdırmış İlham Heydər oğlu Əliyevi - qalib liderimizi xalqımız səs çoxluğu ilə dəstəklədi, özünün düzgün seçimini etdi və yenidən 5-ci dəfə onu özünə prezident seçdi.**

Hamı kimi mən də, bizim ailə üzvlərimiz də bu seçkidən - öz səsvermə hüququmuzdan istifadə etdik. Qardaşım Nağının qızları Zərrintac və Nuray seçici kimi ilk dəfə səsvermədə iştirak etdilər. Daim gənclərə diqqət və qayğı göstərən prezidentimizin lehinə səs verdilər.

Uğurlu daxili və xarici siyasəti ilə doğma vətəndaşlarının sevimlisi olan, dünya liderləri içərisində özünün praqmatik siyasi dəst-xətti ilə seçilib-fərqlənən prezidentimiz İlham Əliyevi bu qələbə münasibətilə təbrik edir, siyasi aləmdə, dövlətçilik fəaliyyətində uğurlar arzulayırıq!

**Şakir Albalıyev**

## Sevilən prezidentimiz

**Azərbaycanımızın başı çox bəlalar çəkib. Zaman-zaman hər bir tərəfdən torpaqlarımıza göz dikib düşmənlərimiz. Hissə-hissə torpaqlarımızı qopardıblar bizdən. Nəticədə torpaqlarımızı itirə-itirə getmişik. Son 200 ildə itirdiyimiz torpaqlarımızı heç vaxt geriyə ala bilməmişik. Ancaq görünür Uca Tanrı xalqımızın bu acı taleyinə göz yummadı, xalqımıza dahi, uzaqgörən şəxsiyyətlər bəxş etməklə bu bəladan bizi qurtarmağa qərar verdi.**

Xalqımızın, vətənimizin tarixinə Ümummilli Lider, Ulu Öndər kimi düşmüş nəhəng dövlət xadimi Heydər Əliyev müasir Azərbaycanımızın qurucusu oldu. Eyni zamanda ölkəmizi işıqlı gələcəyə çıxarmaq üçün mühüm strateji planlar qurdu. Dəfələrlə xalqımıza bəyan etdi ki, itirilmiş torpaqlarımız işğaldan azad olacaq, köçkünlərimiz doğma yurd-yuvalarına qayıdacaqlar. Bu yolda əzmlə çalışdı. Ancaq cismani ömür bu dahi şəxsiyyətə bu xoş günləri görməyi nəsib eləmədisə də, onun qoyduğu yolu layiqli övladı kimi cənab prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev uğurla davam elətdirdi. Tarixə Dəmir yumruq sahibi olan müzəffər Ali Baş Komandan kimi düşən prezidentimiz doğma Qarabağımızı işğalçılardan azad elədi. Bununla tarixə həm də Qarabağın fatehi olaraq adı yazıldı. 44 gündə 30 il işğalda qalan torpaqlarımız azad olundu. O ərəfədə ”Xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim” dedi. Bu, ifadə həm də Ulu Öndərin qoyduğu uğurlu bir yolun Qələbə ilə nəticələnməsinin göstəricisi idi. Həm ata vəsiyyətini yerinə yetirməklə, həm də Ali Baş Komandan kimi torpaqlarımızı işğalçılardan azad etməklə Qarabağın fatehi kimi sevilən prezidentimizi Allah qorusun!

**Ş.Albalıyev**



## Prezidenti İlham Əliyevin andiçmə mərasimi

**Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.**

Andiçmə mərasimində birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək dedi:

- Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs ”Qurani-Şərif”ə əl basaraq and içdi:

- Əlimi ”Qurani-Şərif”ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Prezident İlham Əliyev təzim edərək Azərbaycan Respublikasının Dövlət Bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

# Rayon İcra Hakimiyyəti başçısının səyyar qəbulları

## 1 saylı Cəbrayıl qəsəbəsində



**Növbəti səyyar qəbul 1 saylı Cəbrayıl qəsəbəsində keçirilib.**

Prezident cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, rayon İcra Hakimiyyətinin təsdiq olunmuş səyyar qəbul-görüş qrafikinə əsasən Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov 13 fevral 2024-cü il tarixdə 1 saylı Cəbrayıl qəsəbəsində növbəti səyyar qəbul keçirib. Səyyar qəbulda Rayon İcra Hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, qəsəbə sakinləri iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək son illərdə respublikamızın sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində görülən tədbirlər, əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyi tərəfindən həyata keçirilən sosial layihələr barədə geniş söhbət açıb.

Rayon rəhbəri qəbulda iştirak edən sakinləri dinləyərək onların qaldırdıqları problemlərin həll edilməsi istiqamətində müvafiq tapşırıqlar verib. İcra Hakimiyyətinin fəaliyyət dairəsinə daxil olmayan məsələlərlə bağlı müraciətlərin müvafiq qurumlara göndərilməsi nəzərdə tutulub.

## Bakı şəhəri, Binəqədi rayonunda



**İcra Başçısı növbəti səyyar qəbulu Bakı şəhəri, Binəqədi rayonunda keçirib.**

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov əhali ilə keçirdiyi növbəti səyyar qəbul-görüşü 22 yanvar 2024-cü il tarixdə Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsində yerləşən rayonun Şahvəlli kənd tam orta məktəbində keçirib. İcra Hakimiyyəti başçısı aparatının məsul əməkdaşlarının iştirakı ilə keçirilən qəbulda sakinlər onları düşündürən, narahat edən məsələlərdən söhbət açıblar.

Rayon rəhbəri görüş iştirakçılarını ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzu, əldə edilən yüksək nailiyyətlər və ölkəmizdə həyata keçirilən çoxsaylı qlobal layihələrin uğurlu icrası barədə məlumatlandırıb. İşğaldan azad olunmuş ərazilərdə quruculuq-abadlıq sahəsində görülən işlərdən danışaraq qarşıda duran vəzifələr barədə məlumat verib.

İcra başçısı qəbulda iştirak edən sakinləri dinləyərək qaldırdıqları problemlərin həll olunması üçün müvafiq tapşırıqlar verib. Görüşdə çıxış edən sakinlər işğaldan azad olunmuş ərazilərdə aparılan abadlıq-quruculuq, yenidənqurma işlərinə görə ölkə başçımız cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

## 11 saylı Cəbrayıl qəsəbəsində

**Növbəti səyyar qəbul 11 saylı Cəbrayıl qəsəbəsində keçirilib.**



09 yanvar 2024-cü il tarixdə Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov 11 saylı Cəbrayıl qəsəbəsində sakinlərlə növbəti səyyar qəbul keçirib. Səyyar qəbulda İcra Hakimiyyətinin başçısı aparatının məsul əməkdaşları, idarə, müəssisə, təşkilat rəhbərləri və qəsəbə sakinləri iştirak ediblər.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək bildirib ki, yerlərdə səyyar görüşlərin keçirilməsində məqsəd vətəndaşların problemlərinin öyrənilməsi, onları narahat edən məsələlərin yerində araşdırılması və qaldırılan məsələlərin həllinə nail olunmasıdır. Rayon rəhbəri ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan uğurlardan, eləcə də işğaldan azad olunmuş ərazilərdə aparılan abadlıq-quruculuq işlərindən və əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər barədə qəsəbə sakinlərinə ətraflı məlumat verib.

Səyyar qəbul zamanı vətəndaşların təklif, müraciətləri dinlənilib, icra hakimiyyətinin səlahiyyətlərinə aid olan məsələlərin yerindəcə həll olunmasına rayon rəhbəri tərəfindən göstərişlər verilib, araşdırılmasına ehtiyac olan məsələlər isə nəzarətə götürülüb.

Qəsəbə sakinləri onların müraciətlərinə diqqət və həssaslıqla yanaşıldığı üçün ölkə başçısına və rayon rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

## Sabirabad rayonu Güdəcühür məcburi köçkün şəhərciyində



**Növbəti səyyar qəbul Sabirabad rayonu Güdəcühür məcburi köçkün şəhərciyində keçirilib.**

18 yanvar 2024-cü il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov səyyar görüş-qəbulu Sabirabad rayonu "Güdəcühür" məcburi köçkün şəhərciyində fəaliyyət göstərən 11 saylı tam orta məktəbdə keçirib. Səyyar görüşdə İcra Hakimiyyətinin başçısı cənab Kamal Həsənov, aparatın məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı çıxış edərək səyyar görüşlərin əhalini narahat edən problemlərin yerlərdə birbaşa həlli məqsədilə keçirildiyinə xidmət etdiyini və bunun təməlində vətəndaş məmnunluğunun dayandığını qeyd edib. O, həlli mümkün olan mövcud məsələlərin operativ şəkildə yerindəcə həll edildiyini, zərurət yarandığı halda isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılacağını sakinlərin diqqətinə çatdırıb. Rayon rəhbəri Prezident cənab İlham Əliyevin tapşırığı ilə işğaldan azad olunmuş ərazisində aparılan abadlıq quruculuq işləri, həyata keçirilən infrastruktur layihələri, əhalinin sosial problemlərinin həlli istiqamətində görülən tədbirlər və bu sahədə qarşıda duran vəzifələrlə bağlı sakinlərə məlumat verib.

İcra başçısı qəbulda iştirak edən sakinləri dinləyərək qaldırdıqları problemlərin həll olunması üçün müvafiq tapşırıqlar verib, həlli rayon rəhbərliyindən asılı olmayan məsələlərlə bağlı yuxarı təşkilatlara müraciət edilməsi nəzərdə tutulub. Görüşdə çıxış edən sakinlər işğaldan azad olunmuş ərazilərdə aparılan abadlıq-quruculuq, yenidənqurma işlərinə görə ölkə başçımız cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

## Saatlı rayonu, Əlisoltanlı köçkün qəsəbəsində



**Rayon rəhbəri növbəti səyyar qəbulu Saatlı rayonu, Əlisoltanlı köçkün qəsəbəsində keçirib.**

Cəbrayıl Rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov 16 yanvar 2024-cü il tarixdə Saatlı rayonu, Əlisoltanlı köçkün qəsəbəsində fəaliyyət göstərən Tatar kənd tam orta məktəbində səyyar qəbul keçirərək, rayon sakinlərinin müraciətlərini dinləyib. İcra Hakimiyyəti Başçısı aparatının məsul əməkdaşları və rayon sakinlərinin iştirak etdiyi qəbulda İcra Başçısı ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində qazanılan uğurlardan, əhalinin sosial problemlərinin həlli istiqamətində görülən işlərdən, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərindən və qarşıda duran vəzifələrdən ətraflı danışıb.

Qəbul zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapıb, bəzi məsələlərin həlli isə nəzarətə götürülüb. Rayon sakinləri əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlərə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

# "Gənclər, mən sizə inanıram, güvənirəm" mövzusunda tədbir keçirilib

**02 fevral 2024-cü il tarixdə X.Rüstəmov adına Yuxarı Mərcanlı kənd tam orta məktəbində Gənclər günü münasibətilə Prezident İlham Əliyev: ”Gənclər, mən sizə inanıram, güvənirəm” mövzusunda tədbir keçirilib. Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, aparatın məsul əməkdaşları və rayon gəncləri iştirak ediblər.**





Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə Gənclər günün təsisçisi olan Ulu Öndər Heydər Əliyevin və Respublikamızın ərazi bütövlüyü uğrunda canından keçmiş gənclərimizin, eləcə də bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edənlər gəncləri təbrik edərək bildiriblər ki, iyirmi yeddi il bundan əvvəl 1997-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycanda Gənclər Günü təsis edilib və həmin vaxtdan etibarən hər il fevral ayının 2-i ölkəmizdə ”Gənclər günü” kimi təntənəli şəkildə qeyd olunur. Ondan bir il əvvəl isə 1996-cı ildə Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Gənclərinin birinci Forumu keçirilib. Elə o vaxtdan da gənclər siyasəti daim dövlətin prioritetləri sırasında olub. 2003-cü ildən sonrakı dövrdə isə Prezident İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edildi, 2007-ci il ölkəmizdə ”Gənclər ili” elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ilk dəfə ”Gənclər üçün Prezident Mükafatı” təsis edildi, 2020-ci il ”Könüllülər” ili elan olundu, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər. İstər Ümummilli lider Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin gənclər siyasətinin mərkəzində bir əsas xətt dayanır ki, bu da Azərbaycan gənclərinin Vətənə, yurda, sədaqət ruhunda tərbiyə edilməsi idi.

Müxtəlif sahələrdə çalışan gəclər ölkəmizdə başlanan yeni dövrlə əlaqədar olaraq Prezident İlham Əliyevin rəhbərliyi altında hansı töhfələrlə yeni dövrə qədəm qoyduqlarını, hansı töhfələri verəcəklərini, Azərbaycanımızın, eləcə də ata-baba yurdumuz olan doğma Cəbrayılın gələcək inkişafında daha hansı uğurlara imza atacaqları ətrafında geniş çıxış ediblər. Prezident İlham Əliyevin gənclərə xitabən söylədiyi ”Gənclər, mən sizə inanıram, güvənirəm” mövzusuna öz münasibətlərini bildirərək, hər zaman ölkə rəhbərinin ətrafında sıx birləşərək Azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət edəcəklərini, vətənpərvər, doğma vətənimizə bağlı gənclər kimi dövlət müstəqilliyimizi daim qoruyacaqlarına hazır olduqlarını vurğulayıblar.

Tədbir Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin kollektivinin ifasında musiqi nömrələri ilə davam edib.

# Tarixə dönən yazılar

**Hər kəsin həyatında unudulmaz mərhələlər olur. Mənim həyatımda belə yaddançıxmaz dövrlərdən biri 1993-cü ilin faciəli məcburi köçkünlük illəridir. Qaçqınlıq-köçkünlük ab-havasına öyrəşə bilmirdim, elə bilirdim hər yerdən adamlar mənə baxıb, tənəedici baxışlarla məni süzür, niyə elini-yurdunu, doğma od-ocağını qoyub gəlmisiniz deyirdilər. Ürəyim partlayırdı, dünya başıma dar olmuşdu...**

Adam var ki, acıqlı olanda, hövsələsini basmaq üçün siqareti damağına qoyub, guya bununla əsəblərini sakitləşdirir. Mən də belə anlarda çay içməklə hirsimi-hikkəmi yatırdıram. Bəlkə də, xalqımızın yarızarafat-yarıciddi bəzi məqamlarda nədənsə küsübinciyən birisinə dediyi ”incimisən, get su iç” deməsində bir həqiqət var. Yəqin ki, su (çay) içmək bioloji cəhətdən sinirlərə sakitlik gətirici bir əhval bəxş edir deyə bu ifadəni sabitləşmiş qəlib şəklində işlədir xalqımız. Əlbəttə ki, siqaret çəkməklə, ya çay, su içməklə insan ancaq bioloji ovqat olaraq özünü sakitləşdirə bilər. Axı insan mənəvi dünya daşıyıcısı olmaqla həm də mənəvi varlıqdır. İnsanın ruhunun sakitləşməsi üçünsə müxtəlif məşğuliyyət növləri vardır. Kimlərsə idman edəndə, kimlərsə şahmat oynayanda və s. müxtəlif üsul və vasitələrlə özlərində mənəvi təsəlli axtarıb tapırlarsa, mən də yazı yazanda və o yazılarım işıq üzü görəndə, çap və dərc olunanda daxilən təskinlik tapıram, ruhum sakit olub, dinclik tapır.

Məcburi köçkün düşəndən az sonra Saatlı rayonunun mətbu orqanı olan ”Dönüş” qəzeti redaksiyasına getdim, yazılar verməyə başladım. Sağ olsunlar, üzümə xoş baxdılar. ”Şakir müəllim, yazılarınızı çap etməyinə edəcəyik, amma qonorar vermirik” deyib əvvəldən məni xəbərdar elədilər. ”Şərti şumda kəsək ki, xırmanda yabalaşmayaq” məsəlimizdəki kimi, bununla sanki mənimlə şərtlərini kəsdilər. Mənə də nə lazım idi: Mənəvi sakitlik. Düzdü, əyin paltarı ilə canımızı götürüb qaçmışdıq zalım ermənilərin əlindən. Yəni kasıbçılığımızın pis vaxtları idi və pula da ehtiyacımız çox idi. Ancaq mən təbiətən maddiyyat adamı olmadığımdan, qonorarın olmaması məsələsi məni, deyim ki, heç narahat etmədi. Beləcə, demək olar, hər həftə yazılarım dərc olunmağa başladı. Qəzetin məsul katibi Əyyub müəllim (Cavadov) təklikdə olanda sözarası onu da mənə demişdi ki, Zəbulla müəllimin (qəzetin baş redaktoru rəhmətlik Zəbulla İmanovun) sənin yazılarından xoşu gəlir və tapşırıb ki, onun yazılarını müntəzəm qəzetdə versinlər. Bu minvalla ”Dönüş” qəzeti qapılarını üzümə taybatay açdı və xeyli yazılarım burada işıq üzü gördü. Yazılarım çap olunduqca, qəzəbimi-hikkəmi mənfur erməninin üstünə tökmüş kimi olub, sanki ürəyimi boşaldırdım. Mənəvi təskinlik tapırdım, bir yazı-pozu əhli olaraq öz mənəvi borcumdan çıxmış olurdum bununla elə bil. Bu yazılarımda əslində milli-mənəvi məsələlərdən söz açırdım. Beləcə, həm də elə bil ki, bu yazılar məndən asılı olmadan söz demək kürsüsünə dönüb məni ovundurmağa başladılar. Həm də ki, yazılarımın işıq üzü görməsi baxımından ”Xudafərin” qəzetindən sonra ”Dönüş” həyatımda yeni bir mərhələ oldu, dönüş mərhələsi oldu. Çünki məcburi köçkünlüklə bağlı olaraq ”Xudafərin” qəzeti o dövrdə çıxmırdı. Eyni zamanda mən Saatlıdan 40 km ucqarda yerləşən Azadkənd kəndində məskunlaşıb, orada müəllim işləyirdim. Cəbrayıl rayonu ilə əlaqələrim kəsilmişdi, rayondan təcrid olunmuş kimiydim və məni heç itirib-axtarmırdılar da. Ta 2002-ci ildə ictimai əsaslarla ”Xudafərin” qəzetinə baş redaktor müavini gələnə qədər Cəbrayıl rayonu ilə əlaqələrim yox idi. 2009-cu yanvarından indiyə kimi isə yenə ictimai əsaslarla ”Xudafərin” qəzetində baş redaktor kimi çalışmaqla yazarlıq missiyamı mənəvi borc olaraq yerinə yetirirəm və bundan da qürur duyub, təskinlik tapıram. Sözümün canı odur ki, məcburi köçkünlüyün ağır dönəmlərində ”Dönüş” qəzeti mənə qucaq açdı və həyatımın dönüş mərhələsi - ”Dönüşlü illərim” başlandı.

Hələ 1995-ci ilin mayında ”Dönüş” qəzetində yazmışdım ki, torpaqlarımız işğaldan azad olandan sonra bu qəzetin səhifələrində çıxan yazılarımı toplayıb kitab şəklində nəşr etdirəcəyəm. Çox şükür ki, gec də olsa, torpaqlarımız yağı tapdağından azad olundu və o vaxtlar söylədiyim arzum reallaşır. Əslində bu kitabı 2020-ci ilin sonlarında çap etdirəcəkdim. Çünki 2020-ci ilin əvvəllərindən bu yazıları kompüterdə yığılmağa vermişdim. Bilirdim ki, artıq vaxt-vədə yetişib və Qələbəmiz yaxınlıqdadır. 2020-ci ilin 3 aprelində gecə yuxumda gördüm ki, Dağtumas camaatı Ziyarət dağının ətəyinə toplaşıb. Qonşumuz Molla Məhəmmədnəbi də mənə üz tutub soruşur ki, ”Şakir müəllim, ağlın nə kəsir, torpaqlarımıza qayıdışın şərəfinə neçə qurban kəsək?”. Mən də cavabımda dedim ki ”ay Nəbi, kasıb camaatıq da, pul yığaq bir iri (buynuzlu) heyvan alıb kəsək, bəsdi, Allah qəbul eləsin”. Belə deyəndə Nəbi razılaşdı və camaatı başına yığıb Ziyarət dağının başına qalxmağa başladı. Bax o vaxtlar mən bu kitabı çap elətdirmək üçünkompüterdə yığılmağa vermişdim. Lakin müəyyən səbəblərdən kitabın çapı xeyli gecikdi. Qeyd edim ki, yuxum da çin çıxdı və 6-7 ay sonra İkinci Qarabağ müharibəsi başlandı. Torpaqlarımız işğaldan azad olundu. O vaxtdan uzun müddət keçdi. Atam da, anam da yurd nisgiliylə dünyalarını dəyişdilər. ”Dönüş” qəzetinin o vaxtkı əməkdaşlarının da demək olar hamısı dünyadan köçüblər. Məsul katib Əyyub Cavadov ömrünün ixtiyar yaşlarını yaşayır, Allah can sağlığı, uzun ömür versin. Bir də Nəriman Cavadov Bakıya köçüb, ”Respublika” qəzetində işləyir. Ona da möhkəm can sağlığı, uğurlar arzulayıram.

Qeyd edim ki, kitabda “Müxtəlif qəzetlərdən” rubrikasında ayrı-ayrı qəzetlərdə gedən yazılarımdan bəzi nümunələri də oxucularımıza təqdim etmişəm. Bunu da ona görə təqdim edirəm ki, bu yazılarımın da çap tarixi ”Dönüş”ə ayaq açandan sonra olub, yəni tarix-zaman baxımından ”Dönüşlü illər”dən sonraya təsadüf etdiyindən, onlardan bəzilərini ara-sıra olaraq burada verirəm ki, bu illərdə, ağır qaçqınlıq-köçkünlük dövründə təkcə “Dönüş”dəki mətbu yazılarımla kifayətlənməmişəm, Saatlıya qonşu rayonlar olan Sabirabad, Hacıqabul, Əlibayramlı (Şirvan) şəhərlərində də ara-sıra məqalələrim işıq üzü görüb.

1999-cu ilin oktyabrından yazıçı-publisist, şair Əlirza Xələflinin baş redaktorluğu ilə və mənim məsul katibliyimlə nəşrə başlayan ”Kredo” qəzetindəki yazılarım da yaradıcılıq baxımından həyatımda növbəti bir mərhələdir ki, qismət olsa, onları da cildlər şəklində ayrı-ayrı kitablar kimi nəşr etdirəcəyəm.

“Dönüşlü illərim” - 1993-2002-ci illərdə qəzetin səhifələrində getmiş yazılarımdan və 2021 -ci ilin oktyabrında ikinci Qarabağ müharibəsi şəhidlərindən olan iki şəhidimiz haqda olan məqalələrimdən ibarətdir. Ola bilsin ki, həmin dövrdə bir neçə yazım da ara-bərədə it-bata düşüb. Çünki məskunlaşdığım Azadkənd kəndi rayon mərkəzindən - Saatlı şəhərindən çox uzaq olduğundan, redaksiyaya vaxtında gedə bilməmişəm və qəzetdə işıq üzü görmüş yazılarımın hamısını əldə edə bilməmişəm. Bir xeyli yazım da işıq üzü görmədən qəzetin arxivində qalıb. Bu da o yazıların itkinlik taleyidir. Hər yazılan tarixə qovuşmur ki! Yazının da insanlar kimi taleyi var. İtkin düşən insanlar olduğu kimi, itkin düşən yazılar da olur. Hər halda yazılanlar tarixin bir parçasını özündə yaşadırlar. ”Dönüşlü illərim” də tarix(imiz)in bir parçasıdır. Tarixə dönən yazılar zamanın güzgüsü kimi bizi özümüzə göstərib tanıdırlar.

**Şakir ALBALI**

**Professor Qəzənfər Kazımovla şair-publisist Əli Rza Xəlfli ədəbi-publisistik qeydlər, xatirələr, şeirlər, təəssüratlardan ibarət olan "Yaşayan Sərdar Əsəd" ("Gənclik", 2023) kitabını oxuculara təqdim ediblər. Kitabda həmçinin şair Sərdar Əsədin öz yaradıcılığından da bəzi nümunələr özünə yer alıb ki, bu da şair Sərdar Əsəd dünyası ilə birbaşa tanışlığa imkan yaradır. Yəni şair haqqında burada özünə yer alan ədəbi-publisistik yazılar fonunda şairin öz əsərlərinin də eyni kitabda getməsi əyaniliyi daha da artırmağa xidmət edir.**

# SƏRDAR ƏSƏDİ TANIDAN KİTAB

Professor Elçin Mehrəliyevin redaktor yazısı olaraq "Qalmasın boynumda bir günah, babal" gedən ön sözündən sonra Sərdar Əsəd haqqındakı geniş həcmli "Yaşam yolu" (Yaşar Əsədov) adlı yazıda oxucular nakam şairin keşməkeşli ömür yolu olan həyat və fəaliyyəti barədə əhatəli məlumat əldə edə bilirlər.

Ardınca şairin övladlarının - Qoşqar, Yaşar və Nazlı Əsədovların "... Və daha bir neçə söz" başlıqlı yazıları da Sərdar Əsədin yubileyi işığında söylənməklə oxuculara müəyyən məlumatlar agah olur.

Kitabın bundan sonrakı hissəsi "Yaşayan Sərdar Əsəd" bölümü ilə təqdim olunur. Bölməyə epiqraf olaraq professor Qəzənfər Kazımovun və yazıçı-publisist Ə.R.Xəlfliniп aşağıdakı fikirləri verilib: "Sərdarın mövzular aləmi çox zəngindir. Həyatın yeniliklərini məhəbbətlə qələmə alırdı. İctimai həyatın təsviri Sərdarın şeirlərində ön planda idi. Sevgi də, gəncliyin istək və arzuları da yaradıcılığında geniş yer tuturdu. Xüsusən ilk şeirləri öz gəncliyindən doğan sevgi motivləri ilə zəngin idi. Şeir texnikasına yaxşı bələd idi. Lirik və lirik-epik şeirin əksər formalarında qələmini sınamışdır. Üslubu orijinal idi. Heç kəsi təqlid etmir, heç kəsin yolu ilə getmirdi. Həqiqi xalq adamı idi. Xalqın arasında getməkdən, vətənin dağlarını, dərələrini, meşələrini, ovlaqlarını, tarixi abidələrini gəzib-dolaşmaqdan və təsvir etməkdən zövq alırdı. Zəhmət adamlarını poeziyaya gətirirdi. Vətənin qədim abidələrini, gözəlliklərini vəsf etməkdən iftixar duyurdu" (Qəzənfər Kazımov).

"Yerin alt qatlarında yığılan maqma enerji kütlələri sıxılıb çoxaldıqca özünün təsir gücünü artırır və çox dəhşətli bir təlatümlə yeri yarıb üzə çıxır. Vulkanlar, zəlzələlər yerin təkindəki enerji ilə bağlıdır. Yer çatlayır, sıxılmış enerji azad olur. O başqa məsələdir ki, onun fəsadları zəlzələlərə çevrilir, yerin üstünə bir çox hallarda fəlakət gətirir. İnsan qəlbi də belədir. Bəzən həyatda ən müqəddəs diləklərinin təsdiqini tapa bilməyən insan bu qəzəbləri ürəyinə yığır".(s.38)

Professor Q.Kazımovun "Şair Sərdar Əsəd" adlı 90 illik yubileyi işığında qələmə aldığı yazıdan oxuyuruq: "Sərdar Əsəd (Sərdar Heydər oğlu Əsədov) 9 may 1930-cu ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur.

Atası Heydər kişi mehriban və zəhmətkeş bir kənd əhli, anası Həsyə xanım təhsil görməmiş qadın idi. Heydər kişi cavanlığında igid bir oğlan olmuş, başı üstə at çapar, çapa-çapa tullanıb atın belində ayaq üstə durarmış. 20-ci illərdə Sovet hökumətinə qarşı mübarizə aparan Qaçaq Həsənin dəstəsinə qoşulmuş, nəhayət, bu hökumətin müvəqqəti olmadığını, xalqın xeyrinə çalışdığını görərək qaçaqlardan ayrılmış, kəndə - öz evinə qayıtmışdır. Lakin hökumət tərəfindən ailəlikcə Sibirə sürgün edilmişdir. Körpə övladları olduğunu nəzərə alan hökumət bir il sonra onları sürgündən azad etmişdir. Həmin körpə Sərdar idi.

Heydər kişinin Sərdarla yanaşı, iki qızı da var idi. Böyük qızı mənim müəlliməm olmuş, 2-ci sinifdə mənə dərs




demişdir.

Sərdarın ibtidai sinifləri bitirdiyi illərdə mənim atam kəndimizdəki məktəbin direktoru idi. Atam məktəbi onilliyə çevirmişdi. Sərdar o illəri yaxşı xatırlayır və ehtiramla danışırdı. Hətta son siniflərdə oxuduğu illərdə bir dəfə bərk əsəb pozğunluğu keçirmiş, gəlib bizim evə girərək atamın böyük şəklini görüb sakitləşmişdi.

Sərdar orta məktəbi əla bitirib, Ağdam Müəllimlər İnstitutuna daxil olmuşdur. Buranı əla qiymətlərlə bitirdikdən sonra V.İ.Lenin adına APİ-nin dil və ədəbiyyat fakültəsinə daxil olmuş, Ə.Dəmirçizadə, M.Rəfili kimi görkəmli dilçi və ədəbiyyatşünas alimlərdən dərs almışdır" (s.39)

Bu minvalla alim şairin həyat və yaradıcılığı ilə bağlı dolğun və əhatəli yazısı ilə Sərdar Əsədlə bağlı mühüm fikirlər nümayiş etdirir.

Bu yazıdan sonra Ə.R.Xəlfli "Təlatümlər qəlbimdədir" adlı yazı ilə S.Əsədin yaradıcılıq dünyasından söz açır və sonda bir maraqlı məqama da toxunur: "Şairin həyat yoldaşı, Əməkdar mədəniyyət işçisi, jurnalistika veteranı Tükəzban Əsədova və ailə üzvləri onun zəngin poetik irsini, arxivini sövq-təbii bir intuisiya ilə, zamanı gəlib çatacaq ümidi ilə qoruyub saxlayıblar. Tükəzban xanım şairin bir vaxt Şuşada olarkən 1972-ci ilin avqust ayında qələmə aldığı Şuşa təəssüratlarını redaksiyaya göndərib. Şeirlər şairin öz əlləri ilə redaktə olunub və həmin şeirlərə "Müəllifdən" imzası ilə bir ön söz də yazılıb. Kim nə deyir desin, mən bir həqiqətə inanıram; əsil şairin yazdıqları bütün zamanlar üçündür. Mən Şuşa ilə bağlı müəllif qeydlərini oxuyanda elə hesab etdim ki, bu qeydlər elə ötən yay yazılıb. Sanki şairin ruhu həmin o yaralı Şuşanı təzədən gəzib. Və 35 il zamanı qabaqlayaraq gördüklərini sözə çevirib" (s.115).

Mən yazımın əvvəlində əbəs yerə qeyd etmədim ki, kitabda Sərdar Əsədin öz yaradıcılığından örnəklərin də verilməsi oxucu ilə şair arasındakı tanışlığı daha da yaxınlaşdırır. Əlirza müəllimin işarə etdiyi və təqdir etdiyi S.Əsədin Şuşa ilə bağlı təəssüratları - "Şuşa tumurcuqları" yazısı da kitabda gedib və istərdim ki, elə o yazını burda da oxuculara bir daha çatdırım:

"Keçən ilin (1972-ci ilin - Ş.A.) yayında yolum Şuşaya düşmüşdü. Buraya axırıncı gəlişimdən on iki il keçirdi. Yaşıllıqlar qoynunda təzə ağ binaları, ağ çiçək açmış Şuşanı hələ də layiqincə yazılmayan gözəl və əbədi bir şeir kimi dinləyib oxudum...

Oxuyub dinlədim...

Mürəkkəb və maraqlı tarixi hadisələr, təkrarolunmaz təbii abidələr və heyrətamiz qaya heykəlləri ilə şəhər sanki yenidən qarşıma çıxdı. Dərin dərə, sirli, iz itirən meşəli, nəğmələri təmənnasız bülbüllü, gəzintiləri tez-tez dayandıran, enişli-yoxuşlu yolları dirsək-dirsək, doğram-doğram döngəli, bulaqları zərif zümzüməli, muğamı zirvə çağırışlı bu dağüstü şəhərdə dağların üst mərtəbəsində bir-birinə qovuşan real, romantik, nikbin-qəmli, canlı hekayətcil, dilavər lövhələrin yorulmaz dinləyicisinə, oxucularına çevrildim.

Şuşanın ikinci fərqi və ziddiyyəti, xüsusən bahar və yay vaxtlarında gediş-gəlişli, qonaq-qaralı olmasındadır. Qəribədir ki, çoxdan soraqladığın könlünə düşən dost-tanışla Şuşa "təsadüfündə" görüşə bilərsən; Respublikamızın hörmətli dil və ədəbiyyat müəllimlərindən - 1949-cu ildən yaxşı tanıdığım unudulmaz dostum ağdamlı Sabir Rəhimovla məni də Şuşa rastlaşdırdı. O günlər - ata Sabirin bir övladı da Şuşa yüksəkliyində dünyaya gəldi... Vərdişimə görə, ona da bildirmədiyim yaradıcı "iş üslubumdan" - zəminli şeir hissi axtarışımdan Sabir Rəhimov, deyəsən xəbərdar olmuşdu. Bunu mən oğlumla geri qayıdanda onun incə xəfiflıyə açılan məmnun gülümsəmələrindən sezə bildim...

Şuşa - müxtəlif yerlərdən hər gün, hər saat maşınlarla tövsiyə-tövsiyə gələn, dolub-boşalan səyyar müşahidəçilər, fotomüxbirlər, tarixçilər, etnoqraflar, ədəbiyyat və incəsənət işçiləri, habelə jurnalistlər şəhəridir. Burada böyüklü-kiçikli hamı gözüaçıq səyahətçi, qeyd və şərhçi, dincələn və turistdir. Azərbaycana və ölkəmizin digər ərazilərinə qabiliyyətli, istedadlı və görkəmli şəxsiyyətlər çıxara bilən abidələr, mənzərələr, sərgisi təmiz, mavi hava yelkəni Şuşa - müəllimlərimizin, pioner və məktəblilərimizin də sevə-sevə gəzdikləri, gəzə-gəzə dincəldikləri, mənbələri bitib-tükənməz, sinəsi dolu guşələrindədir.

Aşağıdakı şerlər də orada ayaq tutub dirçəlmiş, orada yaranmışdır" (s117-118).

Bu qeydlərin davamında isə "Şuşada - Şüştər" silsiləsi adı altında S.Əsədin 8 şeiri verilmişdir.

Kitabda Tükəzban Əsədova, H.Mirələmov, Tahir Kazımov, Ləman Abbaszadə, Elçin Kamal, Əjdər Fərzəli, Şakir Albalıyev, Fariz Çobanoğlu, İlyas Tapdıq, Əlibala Zalov, Şəddat Cəfərov, Zaur Əbülfətoğlu, Ramiz Heydər, Eldar Şahvələdli, Cavad Cavadlı, Şamxəlil Məmmədov, Hafiz Rüstəm, Yusif Dirili kimi dəyərli qələm sahiblərinin də şair Sərdar Əsəd işığında yazıları verilmişdir. Şairin ömür və yaradıcılıq yolunun səhifələri "Yaşayan Sərdar Əsəd" kitabının səhifələrinə köçürülüb oxuculara çatdırılmışdır.

**Əlif oğlu Şakir**

# İ.Nəsimi dilinin əhatəli tədqiqi

Professor Sevil Mehdiyeva, fəlsəfə doktorları Türkan Əsgərova və Şahnazxanım Şükürzadənin AMEA Nəsimi adına Dilçilik İnstitutu tərəfindən "İmadəddin Nəsimi: dili və üslubu" ("Afpoliqraf", 2019) kitabı çap olunmuşdur. Leksika. Söz yaradıcılığı. Frazeologiya və Morfoloji etüdlər (isim, say və feil üzrə) adlı bölmələrdən ibarət genişhəcmli kitabın əvvəlində ölkə prezidenti İlham Əliyevin 2019-cu ildə İ.Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi və 2019-cu ilin "Nəsimi ili" elan olunması haqqında Sərəncamları verilmişdir.




"Nəsimi ilk dəfə Azərbaycan türk dili sözlərinə (əhatəli şəkildə) ədəbi dil səlahiyyəti verdi" cümləsinin epiqraf kimi verildiyi "İ.Nəsimi dili haqqında: Seyid İmadəddin Nəsimi Azərbaycan ədəbi dilinin banisidir" adlı ön sözdən oxuyuruq: "Nəsiminin ən böyük qəhrəmanlığı ilk növbədə onun öz ana dilində əruz vəznini cilovlaya bilmək istedadı, ana dilini zamanın, dövrün hegemon (qalib) dilləri - fars və ərəb dilləri səviyyəsinə qaldırması, Azərbaycan türk dilini fars, ərəb dilləri ilə rəqabətə çəkməsi və bu çətin rəqabətdə Azərbaycan türk dilinin üstünlüyünü öz təkrarsız istedadı ilə təsdiq edə bilməsi idi. İlk dəfə Nəsimi qlobal şəkildə Azərbaycan türk dili sözlərinə ədəbi dil səlahiyyəti verdi, ilk dəfə məhz Nəsimi xalq dilinin dərinliklərinə varmaqla, xalq dilinin dərinliklərindən dürrlər seçərək, ana dilinin hər bir sözünə, ifadəsinə "dad verdi", onları "dada gətirdi". Nəsimi dünya səviyyəsində ilk poliqlot şairlərdəndir. Lakin bu halda da Nəsimi və Nəsimidən sonra gələn Azərbaycanın bütün poliqlot şairləri Şərqin digər şairlərindən bir addım irəli getdilər: onlar, eləcə də dahi Nəsimi yalnız iki dildə (fars və ərəb dillərində) yox, üç dildə - ana dili olan Azərbaycan türk dilində "Divan" yaratdı. Sübut etdi ki, dərin fəlsəfi mənalı, milli sözlərlə bəzənmiş poeziya nümunələrini Azərbaycan türk dilində də yaratmaq olar. Bunun ən bariz nümunəsini öz təkrarsız bədii yaradıcılığı ilə nümayiş etdirdi, Azərbaycan ədəbi dilinin banisi olmaq missiyasını qazandı. Dünya ədəbiyyatı tarixi təcrübəsi göstərir ki, Əlişir Nəvayi özbək ədəbi dilinin banisi (Borovkov), A.S.Puşkin rus ədəbi dilinin banisi hesab olunurlar (Vinoqradov). Bu gün böyük fəxarət hissi ilə biz də deyə bilərik ki, Nəsimi Azərbaycan ədəbi dilinin banisidir. Şərqin dahi şairləri kimi, Nəsimi də filosof şair idi. Onun fəlsəfi qəzəllərinin böyük bir hissəsi aydın, səlis, əsl xalq dili sözləri ilə zəngin olduğundan sadə xalq da onu aydın başa düşürdü. Nəsimi Ana dilinin təbliğatçısı kimi fəlsəfi ideya və məsləkinin öz xalqına tam çatması üçün bu yoldan bir vasitə kimi istifadə edirdi. Əslində Nəsiminin təbliğatçısı olduğu hürufiliyin də rüşeymində xalq və xalqçılıq ideyası durur: Nəsimi, ilk növbədə, xalqçı idi, sözün həqiqi mənasında xalq şairi idi!" (səh.10).

Beləcə, professor Sevil Mehdiyeva İ.Nəsiminin yaradıcılığına yüksək dəyər verəndən sonra "Azərbaycan ədəbi dilinin təşəkkülündə Nəsiminin rolu" adlı giriş yazısı ilə Sevil Mehdiyeva və Şahnazxanım Şükürzadə şairin əsərlərini dilçilik baxımından təhlilə çəkərək elmi fikirlər nümayiş etdirirlər.

Kitabın "İmadəddin Nəsimi dilinin lüğət tərkibi" adlı 1-ci fəsli Şahnazxanım Şükürzadə tərəfindən, "Nəsimi dilində sözlərin semantik təhlili" adlı 2-ci fəsil yenə Şahnazxanım Şükürzadə tərəfindən (bu fəsildəki Nəsimi "Divan"ında söz yaradıcılığı bəhsi professor Sevil Mehdiyevaya məxsusdur) və "Nəsimi dilində sözlərin mənşəcə təhlili" adlı 3-cü fəsil Şahnazxanım Şükürzadə tərəfindən işlənilmişdir. Hər üç fəsildə şairin dili leksik - semantik baxımından əhatəli tədqiq olunmuş, Nəsimi dilinin zənginlikləri dilçilik baxımından hərtərəfli izahını tapmışdır.

Kitabın "Nəsimi dilinin frazeologiyası" adlı 4-cü fəsil dosent Türkan Mirzə qızı Əsgərova tərəfindən tədqiqə çəkilmişdir. Türkan xanım burada Nəsimi dilində rast gələnən frazeoloji vahidlərin müxtəlif qruplar üzrə təsnifatını aparmış və onların bütöv, əhatəli təhlilini vermişdir.

"Nəsimi dilinin qrammatik quruluşu haqqında" adlı 5-ci fəsli isə "Hal kateqoriyası" bəhsi istisna olmaqla (Şahnazxanım Şükürzadə işləyib) professor Sevil Hacı qızı Mehdiyeva tərəfindən araya-ərsəyə gəlmişdir.

Beləcə, hər üç dilçi alimin - Sevil Mehdiyeva, Türkan Əsgərova və Şahnazxanım Cümşüd qızı Şükürzadənin gərgin elmi araşdırmaları sayəsində Nəsimişünaslığa dəyərli sanballı bir kitab töhfə olunmuşdur. Müəlliflərə dilçilik elmimizə bundan sonra da zəngin dəyərli araşdırmalar aparmaqda uğurlar arzulayıram!

**Şakir Əlif oğlu**

# CƏBRAYIL ŞƏHƏRİNİN BƏDİİ MƏNZƏRƏSİ

Yazıçı Kamil Əfsəroğlunun"Gilavar" ("Mütərcim", 2019) kitabına eyniadlı romanı və hekayələri toplanıb. "Gilavar" romanını oxuyub qurtardıqdan sonra istər-istəməz yadıma Vidadi Hümbətovun "Xudafərin" qəzetində çap etdirdiyim "Cəbrayıl mənəviyyatı" adlı yazısı və "Bir zamanlar" adlı mənzuməsi düşdü. Vidadi müəllim "Bir zamanlar" şeirində Cəbrayıl şəhərinin tanınan, sayılan - seçilən adamlarını nəzmə çəkib, onların simasında Cəbrayıllı günlərə səyahət edir, "Cəbrayıl mənəviyyatı" yazısında isə Cəbrayıllıların halal, saf, sağlam əqidə sahibi olduqlarından böyük ruh yüksəkliyi ilə söz açır. Beləcə, poeziyanın yüyrək dili ilə dağ vüqarlı insanları tərənnüm etməklə Vidadi Hümbətov 1960-1970-ci illərin Cəbrayılını təsəvvürümüzdə canlandırır.

Filologiya üzrə fəlsəfə doktoru Qumru Şəhriyarın qələmə aldığı "Qalalı məhəlləsi" kitabı isə Cəbrayıl şəhərinin bir adlı-sanlı məhəlləsi kimi Qalalılar məhəlləsindən sənədli şəkildə bəhs açmaqla yaddaşımızda bir canlanma yaradır. Bədii nəsrin, xüsusən də roman janrının mövzu, məzmun baxımından əhatə dairəsinin daha geniş olması yazıçı kimi Kamil Əfsəroğluya 1960-1970-ci illər Cəbrayılını ab-havasını yetərincə təsvir etməyə böyük imkanlar açıb. "Gilavar" romanı bədii nəsrin dili ilə o dövrlərdəki Cəbrayıl şəhərinə təkcə bədii baxımdan yox, həm də elə həyati gerçəklikləri əks elətdirmək baxımından da güzgü tutub. Belə ki, müəllif özü uşaqlıqdan xatırladığı, şahidi olduğu hadisələri bədii təxəyyülünün süzgəcindən keçirməklə nəql edir, bu zaman həm özünün yazıçı baxışlarını bədii təsvir şəklində oxuculara çatdırır, həm də ki, gördüyü, tanıdığı insanların və yerlərin adını, ünvanını düzgün çatdırmaqla tarixə yoldaşlıq edir. Bununla da Cəbrayıl şəhəri ilə bağlı tarixi bir əsəri bizlərə təqdim edir.

Təsadüfi deyil ki, yazıçı romana epiqraf olaraq belə bir nostalji duyğular oyadan cümlə seçib: "Uşaqlıq çağımla rastlaşsaydım, bağrıma basardım". Əvvəla, belə bir cümlə özü tapıntıdır - yəni müəllifin yazıçı qələminin tapıntısı. İkincisi, romanı oxuyub bitirdikdən sonra bir daha əsərin əvvəlində verilmiş bu kəlamın əbəs yerə yazılmadığının fərqində olursan ki, müəllifin romanda təsvir elədiyi hadisə və əhvalatlar demək olar ki, onun uşaqlıq, gənclik illərinin xatirələri fonunda cərəyan edir.

Roman janrının tələblərinə uyğun olaraq burada da təsvir edilənlər təkcə bir məkanla - Cəbrayıl şəhəri ilə məhdudlaşmır, tələbəlik illərini keçirdiyi Bakı şəhəri və bakılıların danışıq tərzi də incə yazıçılıq müşahidəçiliyi ilə əksini tapıb:

"Murad məhəllədə ona olan ikili, istilisoyuq münasibətin səbəbini bilsə də, özünü o yerə qoymurdu. Buranın camaatının ləhcəsi də qəribəydi, çox sözü başa düşmək olmurdu. Bu məsələdə Fikrət köməyimizə yetirdi, şərqşünaslıqda oxuyurdu, dilçiliyə həvəsliydi. Bizi başa salırdı ki, nöşün-niyə, yaxçı-yaxşı, qədeş-qardaş, alayı-başqa anlamındadı. Belə sözlər çox idi, yazsaydın, qalın lüğət alınardı.

Bu küçə bir hadisəylə də mənim yadımda qalmışdı. Birinci kursda oxuyanda "Zolotoe pero" deyilən kitayski qələmi tramvayda qoltuq cibimdən çıxarmışdılar. Burada hər məsləkdə, hər xasiyyətdə adam yaşayırdı, öz sakinləri, qayda-qanunları, təhərtöhrüylə şəhər içində şəhər idi Sovetski...

Sovetskiyə bələdliyimi həmsöhbətimə bildirmək niyyətiylə dedim:

- O vaxt 11 nömrəli tramvay da ordan keçirdi.

Tramvaydan söz salmağım oğlanın ürəyindən oldu, çöhrəsi nurlandı.

- Sağ ol səni! Elənçik idi... - dedi. Papirosu damağına apardı. - Gül kimi tramvayı nöş yığışdırdılar, bilmirəm. elə onuynan da küçənin xeyir-bərəkəti qaçdı. Sovetski cayıllarının çoxu tramvaylardan dolanırdı.

- Tramvay sürürdülər? - soruşdum.

O, başını buladı.

- Hə, bildim, konduktor işləyirdilər, -bu dəfə inamlı danışdım. Sözlərimin doğruluğuna şübhəm yox idi, öz adımı bildiyim kimi əmin idim. Uşağa da aydındı ki, tramvaylarda iki adamdan savayı işləyən yoxdu, bir sürücüdü, bir də konduktor. Tramvay qatar deyil ha, maşinisti, maşinist köməkçisi, beş-on bələdçisi, briqadiri, müfəttişləri olsun.







Oğlanın başını bulamağından bildim ki, gümanım yenə məni yanıldıb.

- Kəttim, sən tramvayda kişi konduktor görmüsən, bəgəm? - soruşdu" (səh.19).

Göründüyü kimi, burada yazıçı Bakı şəhərinin o dövrkü mənzərəsini yerli-yataqlı, yəni çox realistcəsinə təqdim edə bilir, bakılıların ləhcəsini, "Sovetski" məhəlləsini, tramvay nəqliyyatının Bakıdakı hərəkətini və s. təbiiliklə təsvir edir.

Bu minvalla yazıçı Kamil Əfsəroğlu o dövr Bakısını - tramvay, trolleybus nəqliyyat vasitələrindən tutmuş Bayıl bazarı və s.-cən hamısını ustalıqla əsərə gətirir, görənləri xəyalən o dövrə qaytarır, görməyənlərin isə təsəvvüründə o dövr Bakısını realliğı ilə canlandırmağa nail olur. Əslində, bu, müəllifin yazıçı kimi uğurudur. Əsərdə yazıçılıqla bağlı bir maraqlı müəllif haşiyəsi də var: "Bazarın ayağında palıddan düzəldilmiş şoraba çəllləkləri masanı əvəz eləyirdi, üstünə qəzet sərib, əməlli-başlı süfrə açırdıq. Dəyanət deyirdi ləzgi şorabasının qoxusu gələndə adam araq içmək istəyir. İçən vaxtlarımız da olurdu. Araqdan dümləyir, ordanburdan söhbət eləyirdik. Daha doğrusu, Dəyanət şirin-şirin danışır, mən qulaq asırdım. "Bazar dəryadı, burda baş verənləri, görüb-eşitdiklərini qələmə alan yaxşı yazıçı olar" - ağlımdan ötürürdüm. Əslində, yazıçılıq uşaqlıq arzum idi və məni filologiya fakultəsinə gətirən də bu arzuydu. Rayon qəzetində cızma-qaralarım çıxmışdı. İnstituta girəndən, "Ədəbiyyat və incəsənət" qəzetində "İlk səhər" adlı hekayəm dərc olunandan sonra özümə inamım artmışdı ki, mən artıq yazıçıyam. Amma Dəyanətin bir söhbətindən sonra yanlış qənaətə gəldiyimi anladım. Dostum nağıl eləyirdi ki, bazara bir şair gəlirdi, yoğun səsi vardı, bir kilo pomidor şorabasıyla bir araq vurardu. Deyirdi məni şair eləyən araqdı, bir də bu bazar. Hamı buranı alverxana bilir, amma söz adamı bu məkanı qaynar qazan, əsl həyat məktəbi sanır, yaxşısıynan-pisiynən, şiriniynənacısıynan... Bu sözlərdən sonra mənim baxışım dəyişdi və inanmağa başladım ki, heç bir ali məktəb yazıçı buraxmır, yazıçını Həyat deyilən universitet yetişdirir. Böyük rus yazıçısı Maksim Qorki də elə həyat universitetdən keçib.

İmkan tapdıqca, yolumu bu məkandan, şair demiş, qaynar qazandan salmağa çalışır, bu qazanda qaynamaq istəyirdim. Mənə elə gəlirdi hər gəlişimdə bazara adi bir alıcı kimi girir, oradan yazıçı kimi çıxıram. Bu şüşə məkanda baş verənlərə başqa gözlə baxır, başqalarının görmədiyini görə bilirdim. İnanırdım ki, buraya hər gəlişim məni söz sənətinə, söz dünyasına bir köynək də yaxınlaşdırır. Gözüaçıq olmağa çalışırdım. Həyata açıq gözlə baxmaq adama çox şey verir və bir qədər qəribə səslənsə də, deyim ki, gördüyünə özgə don geydirə bilir, hətta insanların ürəyini belə oxumağı bacarırsan. Məndən ötrü bu şüşəli məkan həm bazar idi, həm də universitet və mən burada görüb-eşitdiklərimi tələm-tələsik yaddaş dəftərçəmə köçürürdüm ki, huşumdan çıxmasın. Qeydlərdən dəftərçə şişsə də, amma hələ ki, onları hekayəyə, yekə çıxmasın, əsərə çevirməyə hünərim çatmırdı" (s.44).

Məncə, burada yazıçı, nasir kimi yetişə bilməyin ilkin hüceyrələrini - sirlərini açıqlayıb Kamil Əfsəroğlu.

Müəllifin qeyd etdiyi kimi, "bu məkanda baş verənlərə başqa gözlə baxmaq, başqalarının görmədiyini görə bilmək" gərəkdir hər şeydən öncə, yazıçılıq iddiasına düşmək üçün. Yoxsa ki, əlinə qələm alıb hər cür mənasız-məzmunsuz cızma-qara eləyənlər də yazıçılıq, şairlik iddiasında bulunur ki, bu da nəticədə sözü urvatdan salmağa gətirib çıxarır. Həqiqi yazıçıyla (şairlə) saxta - yalançı yazarlar arasında hələməhəş bir qarışıqlıq, necə deyərlər, söz meydanında bir anarxiya yaranır.

Çox şükür ki, Kamil Əfsəroğlu bu qarmaqarışıq dövrdə klassik yazıçılıq ənənəsini uğurla davam etdirir.

Bu baxımdan da şair-publisist kimi Vidadi Hümbətov publisistikası və şeiri ilə, gənc alim Qumru Şəhriyar Stenoqrafik yığıncaq fonunda konkret şəxslərdən söhbət salmaqla Cəbrayıl şəhərinin yaxın dövr tarixinə dair müxtəlif biçimlərdə əsərlər ortaya qoyduqları kimi, yazıçı Kamil Əfsəroğlu da "Gilavar" romanı ilə Cəbrayıl şəhərinə dair tarixiliyi özündə əks etdirən bədii nəsr nümunəsini ədəbiyyatımıza töhfə edib. Bu əsəri ilə ən azından Cəbrayılımızla bağlı tarixi uğura imza atıb.

"Mərkəzi kitabxana evimizə yaxın olduğundan, darıxanda kiçik qardaşımla və xalam oğlu Kərəmlə anamın iş yerinə gedirdik. Anam bizə uşaq nağılları toplanmış əlvan rəngli, şəkilli kitablar verirdi. Vərəqləyirdik. Kitabların qəribə iyi-qoxusu vardı, ilk vaxtlar çox xoşlanmasam da, sonradan buranın havasına alışdım. Kərəm birinci sinfə gedirdi, əlifbanı bitirmədiklərindən "ç" hərfinəcən bilir, oxuyub yazırdı. Deyirdi üç-dörd dərsdən sonra hərflərin hamısını öyrənəcək. Onun höccələyə-höccələyə şəkilaltı yazıları oxumağına həsəd aparırdım.

Kitabxanaçı Səməngül xala hərdən oğlu Elmanı da özüylə gətirirdi. Elman məndən bir yaş kiçik, qardaşımla isə həmyaş idi. Ara-sıra anasıyla bizim jildoma, bibisigilə gəlirdi. Ana nənəm tərəfdən qohumluğumuz da çatırdı. Ucaboy olduğundan elə bilirdim o məndən bir yaş kiçik yox, böyükdü. Davranışıyla da seçilirdi, azdanışan olsa da, amma istiqanlıydı. Kitaba həvəsliydi, vərəqləri maraqla çevirir, şəkilaltı yazıları oxuya bilirmiş kimi dodaqlarını tərpədirdi. Hələ məktəbə getməsə də, hərflərin çoxunu tanıyırdı. Biz dolu rəflərin arasıyla dolaşır, heyrətlə baxır, elə bilirdik Qırmızıpapağın, Qoğalın, Cırtdanın evləri bu kitablardadı, onlar burada yaşayırlar. Gözləyirdik ki, bax indicə kitablardan çıxacaq, əlimizdən tutub bizi öz nağıllarına götürəcəklər. Hərdən bəhsimiz də düşürdü: Kərəm deyirdi Cırtdan mənim dostumdu, Elman deyirdi yox, mənim dostumdu. Cırtdanı mən də özümə dost bilirdim. Bəhsimizə anam və Səməngül xala son qoyur, saçımızı tumarlayıb deyirdilər nağıllardakı Cırtdan, Qoğal, Qırmızıpapaq bütün uşaqların dostudu. Bilmirdik ki, bu kitablar aləmindən başlayan yol bizim tale yolumuzdu, hər kəsi öz bəxtinə, öz qismətinə aparacaq: Kərəm Nazirlər Kabinetində məsul işlərdə çalışacaq, Qarabağ münaqişəsinin ağır vaxtlarında rayonun icra başçısı olacaq, Elman alimlik dərəcəsi alıb, Milli Bankın sədri vəzifəsinədək yüksələcək, mənə isə jurnalistlik, yazıçılıq nəsib olacaq...

- Ay qızlar, baxın! Rac Kapur gəlir! - kitabxanaçı Növrəstə xala pəncərədən küçəyə boylandı.

Rac Kapur adını Fikrətə ayama qoşmuşdular, məşhur hind aktyoruna elə oxşayırdı, sanki bir almanın iki bölünmüş parasıydılar. Deyirdilər onları yanaşı qoysalar, Rita belə seçə bilməz həqiqi Rac hansıdı, yalançı Rac hansı...

Fikrət onuncu sinifdə oxuyurdu. Dərsdən çıxanda yolunu kitabxanadan salırdı, oxuduğu kitabı qaytarır, yenisini götürürdü. Kinodakı Rac Kapur kimi onun da üzündən xəfif təbəssüm kəm olmurdu. Civəydi elə bil, bir yerdə durmurdu, danışığı da püfərək idi" (s.120-121).

Kitabdan gətirdiyim bu parçada müəllifin uşaqlıq xatirələri işığında o dövr Cəbrayıl şəhərinin ab-havası canlanır və eyni zamanda rayonun tanınmış simalarının adlarının çəkilməsi isə birbaşa əsərin tarixi roman janrında qələmə alındığını göstərir.

Yazıçı əsərdə qonum-qonşu münasibətlərindəki səmimiyyətdən tutmuş el adətənənələrinin keçirilməsinə kimi hamısını ustalıqla qələmə alır, necə deyərlər, o dövrkü Cəbrayıl şəhərinin əyani, real mənzərəsini yaddaşımızdan canlı kinolenti kimi gəlib keçməsini təmin edir: "Novruz ən çox sevdiyim bayram idi. Bu bayramın gəlişini uşaqlı-böyüklü hamı gözləyirdi. Evlərdən dadlı yemək ətri yayılırdı. Şəmil dayının böyük oğlu Arif həyətdə səhnə qurub, tar çalırdı. Evlərə papaq atan, kosa-kosa oynayan uşaqların çalğı-valğısı, lopa yandırıb havaya uçuranların səs-küyü aləmi başına götürürdü. Ədalət papaq atmaqda ehtiyatlı davranırdı, çünki bir dəfə qonşuya atdığı papaq həlim qazanına düşmüşdü. Qulaq falına çıxanlar xoş söz eşitmək diləyi ilə qapı pusurdular. Evdə atam bizə xəbərdarlıq edirdi ki, ucadan gülməyək, nəğmə oxumayaq, qonşudan - Əyyub dayıgildən ayıbdı. Amma onların da mənzilindən nəsə dadlı yemək ətri gəlirdi. Anam deyirdi Pakizə arvad halva çalıb, qara bayram eləyirlər. qara bayram - bu sözdən üşənirdim. Fəxrəddin qapı-qapı düşür, yuxaya bükülmüş ehsan halvası paylayırdı. Dəhliz qonşusu olduğumuzdan payı birinci bizə verirdi. Anam xasiyyətimə bələd idi, o təamı mənə təklif eləmirdi, bilirdi ki, nə qədər ləzzətli olsa da, dilimə vurmaram, çünki o, qara bayram halvasıydı.

Yayda mənzillərin qapı-pəncərəsi açıq olurdu. Bir dəfə baxdım ki, Pakizə xala üzünü göyə tutub, özlüyündə nəsə pıçıldayır, əyilib qalxır. Gördüyümü anama danışanda, o dedi ki, Pakizə arvad namaz qılır, sən bunu heç kimə demə, yoxsa Əyyub kişini işdən çıxararlar. Mən namazın nə olduğunu bilməsəm də, anladım ki, nəsə yasaq əməldi və istəməzdim ki, Əyyub dayını işdən çıxarsınlar. Hər səhər Əyyub dayını idarəyə tərəf arxayın-arxayın gedən görəndə ürəyim yerinə gəlirdi, bilirdim ki, onu işdən çıxarmayıblar.

*(Ardı səh. 6-da)*

# CƏBRAYIL ŞƏHƏRİNİN BƏDİİ MƏNZƏRƏSİ

*(Əvvəli səh. 5-də)*

Axşama yaxın maliyyə idarəsinin qulluqçuları iki-bir, üç-bir dağılışıb gedirdilər. İdarədən ən sonda Əyyub dayı çıxırdı, jildomacan əlli-altmış addımlıq yolu elə ehmal-ehmal gəlirdi, sanki uzun bir məsafə qət eləyirdi. Nurlu sifətində yorğunluq sezilsə də, bunu dilinə gətirmirdi. Uşaqları görəndə elə bil üzünə gün doğurdu, çöhrəsi açılırdı. Hamımızla əl tutur, kefimizi soruşurdu.

Oğlu Fəxrəddin deyirdi ki, aşağı məhəllədə, məktəbin yanında çovustan tikdirirlər, bora köçəcəklər. Hər dəfə bu barədə danışanda Fəxrəddinin gözləri dolurdu. Mən də doluxsunurdum, jildomu Əyyub dayısız, Pakizə xalasız təsəvvür edə bilmir, ağlıma sığışdırmırdım.

Maliyyə idarəsinin qulluqçuları dağılışıb gedəndən sonra gecə qarovulçusu Şükür kişinin işi başlayırdı. Buranı kimdən, nədən qoruyurdu, bilmirdik. Bildiyimiz buydu ki, əlində silahı yox idi, çomağı vardı və idarəni ucutoppuzlu əl ağacıyla qoruyurdu. Amma sən demə, bu yaşlı adam çomaqla yalnız idarəni yox, həm də özünü qoruyurmuş. Yolu Çətənə dərəsindən keçdiyindən, itəqurda ürcah olmaqdan ehtiyat eləyirdi” (s.123-124).

Fikir verirsinizmi, yazıçı Novruz bayramının şən əhval-ruhiyyə ilə keçirilməsini sanki canlı şəkildə cansız vərəqlərin üzərinə gətirib. O dövrkü Novruz adət-ənənələri gözümüz qarşısında canlanır. Hətta ”Evlərə papaq atan, kosa-kosa oynayan uşaqların” Novruz sevincini də bədii ustalıqla əsərin canına hopdurub. Halbuki bu gün bəziləri əsassız yerə Novruzda, Çərşənbədə papaqatdı adətinin olmamasından danışır, özlərini guya ki, ”duruluğa çıxarmağa” canfəşanlıq edirlər. Daha Novruz bayramının mərasimi mənasının dərinliyinə baş vura bilmirlər ki, bu bir bayram ritualıdır ki, bir silsilə təşkil edir.

Yazıçı burada qara bayramdan da söz salmaqla o vaxtlar bu adət-ənənənin necə keçirildiyini diqqətə çatdırmaqla həm də oxucularda folklor-etnoqrafikyönlü bilgiləri xatırlatmış olur. Pakizə arvadın sovet sistemində namaz qılmağa qoyduğu yasağa görə xəlvətcə namaz qılmasını göstərən yazıçı bununla o dövrün ictimai-siyasi mənzərəsini də əsərdə vermişdir.

Kamil Əfsəroğlu Cəbrayıl rayonunun ictimai-siyasi aynası olan ”Xudafərin” (o vaxtkı ”Lenin bayrağı”, sonralar isə ”Kolxozçu”) qəzeti ilə bağlı uşaqlıq təəssüratlarını da bədii ustalıqla romanda əks etdirib: ”Lenin bayrağı” qəzetinin redaksiyası qəsəbənin mərkəzindəydi - Çinar kəhrizin on-on beş addımlığında. Atam ali partiya məktəbini bitirib rayona qayıdanda onu qəzetə redaktor qoymuşdular. Evimizə yaxın olduğundan, hərdən redaksiyaya gedirdim. Kabinetdəki kuşetkada oturub atamın otaqda gəzişə-gəzişə makinaçıya material diktə elədiyinə, yazıları necə diqqətlə oxuduğuna fikir verirdim. Burada gördüklərim məndən ötrü nağıllı bir dünya idi. Bəzən redaksiyada şəhərdən gələn qonaqlar da olurdu. Atam məni şəhərli həmkarlarına təqdim edir, zarafatla deyirdi ki, gələcəyin jurnalistidi. O vaxt mən məktəbə getmirdim, jurnalistin nə olduğunu da bilmirdim.

Dəhlizin o başındakı mətbəə isə mənə əsl möcüzə kimi görünürdü. Mürəttiblərin şriftləri əllə tək-tək necə yığdıqlarına, qəzetin çap maşınından çıxmasına baxmaqdan doymurdum. Mətbəədəki yağ, boya iyini təbim götürməsə də, dözür, özümü başqa bir aləmdə hiss eləyirdim. Çap maşınının aramsız gurultusu belə məni bezdirmirdi. Üst-başımın maşın yağına, boyaya batdığı vaxtlar da olurdu və bu pintiliyimin üstündə anam evdə məni danlayır, paltarımdakı ləkələri ağ neftlə silib təmizləyirdi.

Redaksiyanın binasından çıxanda evə tələsmirdim, kəhrizin gözünə enib, su içirdim. Bu kəhrizin bəlkə də dünyada tayı-bərabəri yox idi. Su nəhəng çinar ağacının qalın kökləri arasından axırdı, özü də buz kimiydi, adamın dişlərini sızladırdı. Çinar iri budaqlarını kəhrizin üzərində çətir kimi açmışdı, deyilənə görə, bu ağacın səkkiz yüzdən çox yaşı vardı. Kəhrizi isə çar vaxtında Hüseyn ağa adlı mallı-pullu bir bəy qazdırmışdı. Sovet quruluşu gələndə kəhrizə Leninin adını versələr də, yerli əhali buranı Hüseyn ağa kəhrizi kimi tanıyırdı. El arasında Çinar kəhriz də deyirdilər. kəhrizin tarixini qalalı Məşədi Abış kişi yaxşı bilirdi. Danışırdı ki, Hüseyn ağa kəhrizi qızıl pula iranlı kankanlara qazdırıb. Yalan olmasın, lağımı ermənilərin məskunlaşdığı Hərəkül kəndinədək uzanırdı və indiyəcən suyu bir damcı da azalmamışdı. Təşnəsini söndürmək istəyənlər kəhrizin gözünə düşüb buz kimi sudan içir, hər kəs ürəyində Leninə yox, Hüseyn ağaya rəhmət oxuyurdu.

Könlü çay istəyən isə qalxırdı çinarın qalın gövdəsinə sığınmış çayxananın ikinci mərtəbəsinə. Çayxananın bir üzü döşdəki Qalalılar məhəlləsinəbaxırdı. Bu məhəllə başqalarından seçilirdi, həyət-bacası, evəşiyiylə, elə insanlarıyla da. Çar zamanında Şuşa qalasından köçüb gəlmişdilər, ona görə də bu obaya Qalalılar məhəlləsi deyirdilər” (s.130-131).

Göründüyü kimi, K.Əfsəroğlu yazıçı ustalığı ilə tarixi roman janrının tələbləri çərçivəsində Cəbrayıl rayonunun şəhər mərkəzini bədii sözün siqləti ilə əhatəli şəkildə əsərin canına - ruhuna hopdurmuşdur. O dərəcədə sənətkarlıqla bunu bacarmışdır ki, hətta həmin ərazini tanımayan oxucuların da təsəvvüründə bir kinolenti kimi o dövrün Cəbrayılı canlanır, insanlar özlərini təsvir edilən məkanda və hadisələrin içində olmuş kimi görə bilirlər. Əlbəttə, bu, yazıçı dilinin cazibədarlığından, hadisələri təbiiliklə verə bilməsindən doğur.

Yaddaşda əbədi iz salan məktəb illərindən söz salan yazıçı o dövrü belə təsvir edir: ”Yeni məhəllədə yaşıdlarım da az deyildi: Zakir, Əhməd, Seyran, Qurban. 1957-ci il sentyabrın 1-ində birinci sinfə də birlikdə getdik. Köhnə jildomdakı dostum Namiqin bizim sinifə düşməyinə çox sevindim. Tamaranın kiçik bacısı Tünzalə və əmisi oğlu Fariz də bizimlə oxuyurdu. Namiqlə bir parta arxasında oturur, tənəffüsdə də bir yerdə olurduq. Namiq dedi ki, xalasının oğlu olub, adını Kamal qoyublar. İltifat dayınınailəsiylə yaxınlığımız vardı və bu yaxınlıq sonradan kirvəliklə daha da möhkəmləndi” (s.148). Əbəs deməyiblər ki, uşaq beyni ağ lövhədir, ora nə yazıldısa, əbədilik yaddaşa həkk olub qalır. Bu baxımdan da Kamil Əfsəroğlu uşaqlıq yaddaşındakıları yazıçı təxəyyülü ilə əsərə uğurla gətirə bilmişdir.

Əsəri uğurlu edən əsas cəhətlərdən biri də məhz yazıçının təsvir elədiyi doğma məkanı belə təbiiliklə təqdim edə bilməsindədir. Bu təbiilik həm də yazıçı ilə oxucu arasında bir səmimiyyət körpüsü - uğurlu söhbətləşmə rolunu oynayır. Yazıçı o dövrün rəsmi bayramlarının keçirilməsini də təsvirə gətirir, paradda kimlərin gəlib-keçməsini də diqqətə çəkir: ”Nümayişdən alay-alay keçən müharibə iştirakçıları arasında Zeyni dayı, Iəzgi Cəbrayıl, Qaraxan dayı da vardı. Mənim atam, Elmanın atası Sirac dayı, Vaqifin atası Yaqub Hüseynov, kirvəmiz İltifat isə digər rəhbər vəzifəlilərlə birlikdə nümayişçiləri tribunadan salamlayırdılar.

Qələbənin qazanılmasında müharibə veteranlarının hər birinin payı vardı. Amma mən bu bayramda, bu nümayişdə qəssab İbadullanı görmək istəmirdim. Mayası haramlıqla tutulmuş bu ödsifət, bədxah adamın bükülü qalmış barmaqları gözümün qabağından çəkilmirdi. O, yalnız qırdığı malheyvana yox, həyata da qəssab gözüylə baxır, qəssab meyarlarıyla yaşayırdı, təki alıbsatsın, təki kəsib-soysun. Elə bilirdim bu ətiacı adam satdığı ətlə bahəm imanını, vicdanını da tərəziyə qoyur” (s.193).

Maraqlıdır ki, müəllif mənfi tipləri də əsərə gətirməkdən çəkinmir, kimin kim olduğunu yazıçı cəsarəti ilə açıb ortaya qoyur. Bu da yazıçı şəxsiyyətinin özünə güvən, özünə inam hissindən qaynaqlanır. ”Allahqulu isə mehrini itə-küçüyə salmışdı. Qapısında saxladığı qancığın balalarını bəsləyib böyüdür, yaylağa gedən elat adamlarına verib, xırdabaşa dəyişirdi. Bir yol itini həftə bazarına da çıxarmış, amma heyvanın üzünə baxan belə olmamışdı. Bu mahalda cəddi-babadan iti nəyləsə aldəyiş etsələr də, amma satmaz, buna xor baxarmışlar. Allahqulu da əlacsızlıqdan köpəyi heçə-puça vermiş, iki ördəyə dəyişmişdi. Öz boğazından kəsib ördəkləri yemləyir, deyirdi hərəsinin bir toğlucan maliyyəti var. Onun hərzəliyinə fikir verən olmurdu, bilirdilər ki, malını mataha mindirir” (s.202)

Burada yazıçı həm də xalqımıza xas olan milli-mental dəyərləri dilə gətirib itlə bağlı xəlqi düşüncədə mövcud olan bəzi incə nüansları ifadə eləyib. Misal üçün, itin sədaqətliliyindən danışanda, birisi iti tərifləyərkən də ”düzdü, itə yaxşı deməzlər, amma bir yaxşı itimiz vardı” şəklində ifadələr işlədirik. Burada ”malını mataha mindirmək” ifadəsi yadıma rəhmətlik anamdan eşitdiyim bir atalar sözünü saldı:

”- Malı kim pis eləyər?

- Yiyəsi!”

Sual-cavab formasında olan bu deyim əslində böyük həqiqəti ifadə edir. Bunları xatırlatmaqda məqsədim həm də odur ki, əgər yazıçı əsəri oxuyan oxucuda müəyyən hissləri oyada bilirsə, xüsusən də milli duyğularla bağlı, qan yaddaşı ilə bağlı duyğuları tərpədə bilirsə, deməli, o yazıçı həm də öz xalqının danışan dili, yazan əli olmaqla xəlqiliklə yoğrulmuş əsərə imza atıb. Bu mənada Kamil Əfsəroğlu həm də xəlqi duyğulara sadiq bir yazıçıdır.

”Allahqulu köhnə çempionun sözlərini qulağından ötürürdü. Qonşusunun onu Qulu çağırmağını həzm eləməsə də, üstünə getmirdi. Şahlar ona deyirdi sənin adının mənası Allahın köləsi, qulu deməkdi. Allah bilsə ki, onun sənin kimi qulu var, özünü göydən başıaşağı buraxar yerə. Zarafata salsa da məktəbdə aldığı ateizm təlim-tərbiyəsi çoxları kimi onun da davranışında, söz-söhbətində özünü bildirirdi və oxuyub öyrəndiklərini hər dəfə timsallarla sübuta yetirməyə çalışırdı. Deyirdi İkinci Dünya müharibəsində bir başdanxarabın - Hitlerin ucbatından milyonlarla uşaqlı-böyüklü insan qırıldı, şəhərlər, kəndlər xaraba qaldı. Uca Yaradan dediyimiz, bəs, hardaydı, niyə hökmünü göstərmədi? Bir dəli Hitlerə gücü çatmayan Allahı mən neynirəm? Onun belə danışığı rəsmi dairələrdəkilərin canına sarı yağ təki yayılırdı, yəni kişinin oğlu əsl kommunistdi. O allahsızın sözlərindən çoxlarının ürəyinə qara-qura gəlir, başlarını qaldırıb, göyə şəkk-şübhəylə baxanlar da olurdu. Gülxar xala oğlunu tənbeh eləyib deyəndə ki, küfr danışma, Xudavəndi-aləm sənin əlini-qolunu qurudar, Şahların tükü də tərpənmirdi. Deyirdi o vədə o alçaq, dəli Hitlerin əlini-qolunu qurudaydı, niyə qurutmurdu? Şahların ürəyi yaralıydı, atası davada qalmışdı. Düşmənli evin uşağı tez böyüyər, Şahlar da ən böyük düşmən bildiyi Hitlerin acığına tez, həm də bütöv, qaydalı böyümüşdü. Başlı-beyinli, qabiliyyətliydi: gözəl tar, qarmon çalır; rus, alman dillərində bülbül kimi ötürdü. Xəttinə də ki, söz yox idi, yazanda elə bil kağız üstündə inci düzürdü. Bədən Tərbiyəsi İnstitutunu bitirmişdi, yüngül atletika üzrə idman ustasıydı. Sonradan idmanın bu növünün daşını atdı, geçdi, özü demiş, başqa növə - içkiyə. Heyfsilənirdi ki, araq içmək üzrə yarışlar keçirilmir, keçirilsəydi, bu növdə də birincilik qazanardı. Onun sözlərini qəribliyə salmır, inanırdılar ki, Şahlar elə yarışlarda da çempion olardı. İçdi-içmədi, boylu-buxunlu, yaraşıqlı bu oğlanın səliqə-sahmanı həmişə qaydasında olurdu. Hələ onun dilindən yersiz bir kəlmə, nalayiq bir söz eşitməmişdilər. Bu istiqanlı, mehriban oğlanın heç kimdən, heç nədən, heç dünyanın özündən belə bir umusumacağı yox idi” (s.210).

Yazıçının xəlqi üslubu həm də onun xalq danışıq dilindən yetərincə bəhrələnə bilməsində, xalq ifadə və deyimlərindən yerli-yerindəcə ustalıqla yararlana bilməsindədir. Burada yazıçının işlətdiyi ”Düşmənli evin uşağı tez böyüyər” kəlamı xalq müdrikliyinin ifadəsi olmaqla həmçinin yazıçının bu cümləni məqamında işlədib informasiya şəklində təbiiliklə oxucuya ötürə bilməsindədir.

Xalq danışıq dilindən, atalar sözü, məsəllərdən və s. yetərincə faydalanan yazıçının dili, təhkiyəsi də şirindir, oxunaqlıdır, ürəyəyatımlıdır. Maraqlı obrazlı bənzətmələrlə dolu nitqə malik olan yazıçı Kamil Əfsəroğlu müsbət tiplərdən söz açarkən aforizmlərdən yerindəcə istifadə etdiyi kimi, mənfi surətlərdən bəhs edərkən də obrazlı bədii ifadələrə gen-bol meydan verir: ”Axşam qaranlıq çökəndə o taydan bel, külünk səsi gələndə maraq məni boğur, ayağımın altına daş qoyur, qalxıb barıdan boylanırdım. Zülmətdə ağacların arxasından heç nə seçməsəm də, səsdən-səmirdən bilirdim ki, vurhavur iş gedir, kimsə yer belləyir. Elə bilirdim Şeytanın təri hopmuş torpaq iyi burnumu qıcıqlayır. İnanırdım ki, Allahqulu yenə Şeytana papış tikib, bunun əvəzində isə yenə onu qapısında işlədir və o, Şeytandan çox bilir. Nə deyim, bəlkə də Şeytanın yekəsi elə Allahqulunun özüydü.

Xeyirdə-şərdə çay işinə də Allahqulu baxırdı. Toyda-düyündə hallı-pullu, xətirli qonaqlara ikirəngli şirin çay göndərirdi. Eləri bu ayrı-seçkilikdən şərəf duyur, şirin çayı içib, çayçıya üçdən-beşdən şirinlik göndərirdilər. Şirin çayın şirinliyindən Allahqulunun cibləri şişirdi. Səhərisi qeyb olurdu, elə bil qəsəbədə bu adda adam yaşamırdı. Onun hara getdiyini arvadı da bilirdi, qonşular da. Dadanmışdı, avtobusa minib yollanırdı qonşu rayona, toyda yığdığı pulların başına daş salırdı. O rayon şəhər üstündə gedirdi, oradakılar lüləkabab yeyəndə bizimkilər bu təamın yalnız adını eşitmiş, şəklini ”Milli xörəklər” kitabında görmüşdülər. Şəhər ab-havası oralaracan gəlib çatır, bəri tərəflərə addamırdı. Eşidirdik ki, o rayonda dondurma, şirəli su, bulka satırlar, parkda oğlanlar qızlarla gəzir, kinoya gedirlər, buna inanmağımız gəlmirdi. Qonşu rayonla bizim aramızda dağ silsiləsi ucalırdı və hamı da elə bilirdi ki, şəhər nəfəsinin bəri tərəfə addamasının qabağını o dağ alır. Çoxları buna şükür eləyirdi, nədi ki, şəhər yeli buralara əssə, özüylə pisliklər - xuliqanlar, cibgirlər, çapovulçular da gətirəcək. Qapıları kilit-qıfıl tanımayan evləri-eşikləri oğrular bir göz qırpımındaca ellə təmizləyəcəklər, diş qurdalamağa çöp də qalmayacaq. Mənsə uşaq ağlımla başqa cür düşünür, mülahizə eləyirdim, deyirdim dağı götürsünlər, onun yerində Araz boyundakı kimi tikanlı məftillər çəkib sərhəd qursunlar, bəri üzə yalnız yaxşılıqları buraxsınlar, biz də limonadın, bulkanın dadını-tamını biləк, biz də ürəyimiz tutan qızlarla parkda əl-ələ gəzək” (s.204).

Gətirilən parçadan görürük ki,oxucu yazıçı dilinin şirinliyini, təhkiyəsinin rəvanlığını, obrazlı danışığı aydınca görür, anlayır. İstəyir ədəbi obrazla bağlı, istərsə də maraqlı təsvirlərində yazıçı dilinin bədiiliyi əsas şərtdir və yazıçı Kamil Əfsəroğlu oxucu dünyasına özünün bədii sözü və şirin təhkiyəsi ilə rahatlıqla yol tapa bilir.

**Şakir ALBALIYEV,**
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Uşaqlığımın dalınca getmişdim "ev"imizə...

**APA TV-nin rəhbəri Orxan Məmmədlinin otağından çıxıram. Onun ”Samirə xanım, hazırlaşın, Cəbrayıla gedirsiniz” sözləri bütün ovqatımı dəyişir. Yaxınlıqdakı stulda əyləşirəm. Əllərim titrəyir, onları hara qoyacağımı bilmirəm. Dəhlizdə heç kim yoxdur. Təmkinlə, sakit addımlarla yeriməyə çalışıram. Amma elə bil ayaqlarım yerdən üzülüb. Sanki yerimirəm, havada süzürəm. Özözümə düşünürəm, illərlə gözlədiyim bu xəbəri indi kiminlə bölüşüm, necə edim? Bu qədər titrəmənin, həyəcanın içində soyuqqanlılığımı necə qoruyum, necə sevinməyim, gülməyim?**

Səfərə hələ iki gün var, birdən baş tutmaz, birdən alınmaz deyə düşünürəm. Sonuncu fikirlərdən özüm də ehtiyatlanıram. Dəhlizin sonunda hündür bir oğlanla rastlaşıram. İstəyirəm, onu yolundan saxlayım, araya bir söz salıb, ardınca ”Cəbrayıla, evimizə gedirəm. 28 ildən sonra” sözlərini deyim. Amma baxıram ki, oğlan çox qayğılıdı, həm də yeni işçidir. Demək olar, heç salamımız da yoxdur.

Otağa girirəm, heç kim yoxdur. Əyləşirəm. Sinəmdə elə bil bir kəpənək oturub. Onun hər qanad çırpması ilə bütün bədənim uçunur. Rəfiqəm Sevda Sultanovaya ikicə kəlmə yazıram: ”Cəbrayıla gedirəm”. Kəpənək dinc durmur, yenə də asta-asta qanad çalır. Sevdaya yazdığım sözləri Cavanşir Yusifliyə də yazıram. Uçunma bir az səngiyir. Bacıma yazıram: ”Evimizə gedirəm”. Çırpıntı kəsir.

İşdən çıxıb evə gələndə yol boyu götür-qoy edirəm.

Görəsən, gedib çıxa biləcəyəmmi?

Bu qədər vaxtdan sonra evimizi görmək mənə qismət olacaqmı?

Yuxudan bir neçə dəfə səksəkə ilə oyanıb təzədən yatıram. Səhərə yaxın yuxudan ayılıram. Anamın şəklinin qarşısına qoyulan iri vazanın önündə var-gəl edirəm. Nəhayət vazanı bir azca kənara sürüşdürüb diqqətlə anama baxıram. Səkkiz ay əvvəl şəkildən necə baxırdısa, yenə də elə donuq baxışlarla mənə baxır. Vazanı yenidən şəklin qarşısına itələyirəm.

Uşaq vaxtı bir müşkülüm olanda Allahla sövdələşməyə keçirdim. Verəcəyim heç nə olmadığı üçün ömrümdən bir qədərini Allaha nəzir verirdim. Anam xəstələnirdisə, gecələr yerimə girəndə, ”qurban olum, anama heç nə olmasın, ömrümün bir ayını nəzir verirəm” sözlərini dua kimi pıçıldayırdım.

Qardaşım velosipeddən yıxılırdısa, sövdələşmə başlayırdı. Evimizin ən qaranlıq küncünə çəkilib duaya başlayırdım, ”ömrümün bir ilini nəzir verirəm, qardaşıma heç nə olmasın”. Bu xasiyyətim böyüyəndən sonra keçib getmədi. Bu ilin əvvəlində anam komaya düşəndə də ömrümdən xeyli hissəni nəzir demişdim. Heç nə hasil olmamışdı. Ömrüm də getmişdi, anam da. Mənə elə gəlirdi ki, nə baş verir-versin, Tanrı mənim ömrümü qaytarmamaq şərti ilə təhvil alırdı.

Uşaqlıq xasiyyətim indi səhərin bu işıqlanan vaxtında yenə də boy vermişdi. Bir yandan da kəpənəyin çırpınışları məni əldən salırdı.

”Ömrümdən istədiyin qədər götür, amma o evə çatdır məni. Bircə dəfə görüm bəsimdir. Başqa heç nə istəmirəm”.

Telefona zəng gəlir. Saat beşin yarısı APA TV-nin sürücüsü Muradın səsidir:

- Samirə, biz həyətdə gözləyirik.

Deyə-gülə yola düşürük. Yolboyu qorxulu fikir tez-tez həndəvərimdə fırlanır. Birdən evə gedə bilmərəm! Bu fikir mənə yaxın düşən kimi gülüşüm yarıda qalır, baxışlarım dumanlanır. Pəncərədən ətrafa, yollara boylanıram.

İlk dəfə qaçqın gəldiyimiz Satlıdan, Qıraqlı kəndindən keçirəm. Atamın, anamın burada keçirdiyi məşəqqətli, yağışlı, zığılı-palçıqlı günləri, iki saat dərs vaxtına görə evsiz-eşiksiz, heç nəsiz qalan atamla cəbəlləşən bir əli işləməyən subay müəlliməni, hər gün gəlib həyətindəki nar ağaclarının üstündəki meyvələri sayan kirayəçi Şamama arvadı, şaxtalı havada bu kənddən baş götürüb Bakıya getdiyimiz günləri xatırlayıram.

Horadiz postunu keçirik. Cəbrayılın Şükürbəyli kəndindəki postda dayanırıq. Ətrafa diqqətlə baxıram. Atamın otuz il dərs dediyi kənddə nə isə köhnədən qalma bir nişanə axtarıram. Sevinc Vaqifqızı zəng vurur:

- Samirə, hardasınız?
- Posta çatmışıq.
- Hə, get, evinizi qabağına qoy, doyunca ağla. Amma möhkəm ol. Postda çətinlik olsa, zəng vur.
- Yaxşı, Seva...
- Hə.
- Yatma, haa.
- Dəlisən, hara yatıram? Sən Cəbrayıldan çıxana qədər yatmaram.

Cəbrayıla yollanırıq.Oradakı postdan bizə təhkim olunmuş polis maşınının ardınca düşürük.Yolun sağı da, solu da viranədir.Hər tərəf yarıuçuq divarlardan, komalanmış daşlardan, yabanı halda bitən kol-kosdan ibarətdir.Tanış heç bir mənzərə, işartı yoxdur.

Bu qədər uçqunun içərisində yaddaşımla davaya çıxıram, beynimin içində nə qədər eşələnirəmsə, heç nə alınmır. Ətrafı tanımıram. Bizə bələdçilik edən polis maşını dayanır, biz də dayanırıq. Uzunluğu üç, dörd metr olan bir ağacın yanına yaxınlaşan polis bizə deyir:

- Bura çinarın yanıdır. Bəlkə nə isə çəkmək istəyərsiniz deyə dayandım.

Özümü maşından bayıra atıram:

- Budur həmin çinar?
- Hə...
- Ola bilməz! Burda polis idarəsi vardı, qarşıda ”raykom”un binası, bir az yuxarıda bank, sonra musiqi məktəbi, kitabxana!

Oğlan dediklərimi təsdiq edir:

- Bəli, hamısı burda yerləşib. Mən də Cəbrayıldanam.Tanıyıram buranı.

Yenə inanmıram.

- Çinarın altında böyük kəhriz vardı...

Oğlan bir az irəli, çinarın altına doğru gedir.

- Kəhriz odey ordadı, - əli ilə işarə verdiyi yerə tərəf addımlayıram.

Kəhrizə düşən pillələri ot, kolkos basıb. Üstü daşla hörülüb. Polis mənə xəbərdarlıq edir:

- Getməyin. Ordan ayaqyolu kimi istifadə edirmişlər.



Büzüşüb qalıram bir tərəfdə. İçimdəki kəpənəkdən də əsər yoxdur. Təzədən maşına oturub yola düşürük. Stadionun yanından keçirik. Burdan bizim evə iki yüz, üç yüz metrdir. Uzaqdan məhlənin xarabalıqları ağarır. Sol tərəfdəki uçurulmuş, dağılmış evlərin yanından ötüb keçirik. Diqqətlə baxıram, qonşuların evlərini ayırd etməyə çalışıram. Faydasızdır. Hiss edirəm ki, stadiondan çox uzaq getdik. Maşınlardan düşürük. Həndəvərdə çoxlu ev uçqunu var. Hara gedəcəyimi kəsdirə bilmirəm. Yolun ortasındakı balaca qoz ağacı məni çaşdırır. Qoz ağacından sonrakı ev bizim olmalıdır deyə düşünürəm. Amma birinci, ikinci, sonrakı evlər yarım adam boyu təpədədir. Bizim evlər bu qədər hündürdə deyildi axı. Gözüm polisi axtarır:

- Biz deyəsən çox gəlmişik. Stadiondan sonra bu qədər gəlməməliydik. Bəlkə stadionun yanına qayıdıb ayaqla gələk, onda rahat taparam. Maşınlara minirik, təxminən iki yüz metr irəli gedirik. Qarşımıza daş yığınından ibarət daha bir məhlə çıxır. Maşından düşürük. APA TV-nin əməkdaşı İlahə Vəliyeva də titrəyə-titrəyə yanımca addımlayır:

- Samirə, bura nə soyuqdu, mən dondum!

Başımı qaldırıb göy üzünə baxıram.Tərtəmizdi, lap uşaqlıqda gördüyüm kimi.Hava da mənə görə çox soyuq deyil, sərindir. Hələ ki, bircə tanış gələn təbiətdir. Bu günəşsiz payız havasını, sərinliyini, tutqunluğunu illərlə axtarmışam, bəlkə də ona görə payızı çox sevmişəm.Nə zaman ki, hava tutulub, bax, həmin bu havanı xatırlamışam. Yenə key kimi ətrafa boylanıram. Mən ətrafa baxdıqca, İlahə də diqqətlə mənə baxır. Bir neçə saat sonra Cəbrayıldan Xudafərinə gedəndə isə o, mənə deyəcəkdi:

”Evinizi axtaranda, üzündə dəhşətli qorxu gördüm, hiss etdim ki, evinizi tapa bilməməkdən qorxursan”.

Haqlı idi. Orada o, yüzlərlə uçqunun içində çarəsizcə dayandım. ”İndi mən evimizi necə tapacam?” - deyə öz-özümə sual verirdim - Birdən tapmadım, bu qədər zəhmət, əziyyət hara getsin bəs?

Ürəyimlə səsləşirəm. Bircə işarə ver mənə, allah, bircə işarə.

Qəfildən qarşıda balaca, qapısı bağlı tikili gözümə dəyir. Bu qədər xarabalığın içində sağ qalan nə olar deyə düşünürəm. İrəliləyirəm. Tikilinin görüntüsü sanki yaddaşıma bir neçə cırmaq atır. Birdən ”buradır!” deyib qışqırıram. Operator Faiq Həsənov, sürücümüz Murad, polis işçisi mənə tərəf gəlirlər. Mən əlimlə səs gələn tərəfi göstərirəm:

- Artezandı, bizim evin yanında artezan vardı.

Sevinirəm. Polis bir az irəli gedir, sonra bizə baxıb təsdiqləyir:

- Hə, ordan su səsi gəlir.
- Burdan üçüncü ev bizimdir deyib gedirəm. Getmirəm, uçuram.Bu qədər dağıntının içindən heç nə tapmayacağıma əminəm.Amma həyət qapısının yanında iri dəmir zibil yeşiyi vardı, atam ora payızda xəzəl yığıb yandırardı.Düşünürəm ki, nəyi aparsalar da, xəzəl yeşiyi orda olar.Həyətin girəcəyində həmin yeşiyin torpağa batdığını görürəm.

Ətrafa baxıram.

Axır ki, gəldim!

Axır ki, çatdım!

Bu günü də gördüm.

Bu da evimiz!

Amma xəyalımdakı, yaddaşımdakı o ev belə deyildi axı. İllərlə yadımda qalan o ev hardadı? Qarşımda yavaş-yavaş torpağa batan, divarlar, daş yığını var.

Hamı sözləşibmiş kimi kənara çəkilir.Operator ehtiyatla kameranı quraşdırır.Azman viranəliyin içində təkcə qalıram.Həyətin ortasında dörd dolanıram.Atamın tutma qoyduğu taxta boçkaları, tut ağacını, alabəzək qızılgül kollarını axtarıram.

”İlahi, bu idimi mənim axtardığım?” - deyə öz-özümə düşünürəm -

”Bu idimi mənim illərlə yuxularımda gördüyüm ev?”

Yuxularımda nə qədər təngnəfəs olub bu qapıya gəlmişəm, özün bilirsən.Sonuncu yuxuda həyətə çatıb heç kimi tapmayanda uşaq otağında yellənən tül pərdələrin arasından gülümsəyən anamı görmüşdüm.

Hanı indi o otaq, o tül pərdələr, anam?

Hardadır onun gülüşü?!

Bəs gündüzlər məktəbdə dərs deyib, gecələr ev tikən, illərlə evinin açarlarını cibində, həsrətini ürəyində gəzdirən o nisgilli kişi - atam hardadır?

İlahi, bu idi 28 ildən sonra mənə verdiyin?

Ömrümdən qoparıb nəzir dediyim illərin, ömrümdən gedən ömrün əvəzi bu idi?

O illərlə bərabər, 28 ilim də yox olub axı. On üç yaşlı qız, o sarı saçlı Samirə harda gizlənib, çıxsın çölə.Çıxsın qarşılasın öz gələcəyini.Anasını, atasını burdan çox uzaqlarda dəfn edən 41 yaşlı qadını.

Hardadır, o mavi rəngli uşaq otağı, çəhrayı rəngli qonaq otağı, rəngbərəng işıqları, şüşə oyuncaqları olan yolkamız?

Hardadır heç vaxt uyuşa bilmədiyim, candərdi çaldığım qara piano?

İkinci insultdan sonra həmişəlik susan atam dünyasını dəyişəndə onun üzünü çevirib yatdığı divarda çoxlu cırmaq yerləri vardı.

İllərlə o cırmaq yerlərinin səbəbini düşündüm.

İndi anlayıram.

O izlər bu evin, bu torpağın dərdi imiş...

Həyətimiz nə balaca imiş?

Atamın əkdiyi qızıl güllərdən əsər qalmayıb. Bircə yasəmən ağacı böyüyüb. O da kimsəsizlikdən, təklikdən qocalıb, budaqların ucu yer süpürür.

Hamamın, soyunub geyinmə otağının kafelləri divardan tam qopub tökülməyib. Kafelləri sığallayıram. Anam bizi hər həftənin şənbə günü burda növbə ilə çimizdirər, dəsmala büküb evə aparardı. Qış günlərində soyuq olmasın deyə qaça-qaça gedirdi çox vaxt. Sonralar bu hamam həm də bizim sığınacağımıza çevrildi. Üstü beton idi deyə, atışma olan kimi qaçıb saatlarla orda əyləşirdik.

İndi ətrafa düşən sal beton qırıqlarından hiss olunur ki, hamamın üstünə top, ya da ”qrad” mərmisi düşüb.

Hamamın yanından bostana gedən yolu kol-kos basıb.Bostana keçməyin mümkünsüz olduğunu düşünürəm.Hamamın pəncərəsindən bostanımıza boylanıram.İlahəgil ordadırlar.

- Siz ora necə keçdiniz? - soruşuram.

İlahə əli ilə evimizin arxasını göstərir:

- O tərəfdən gəl.

Heç nə başa düşmürəm.Axı bostana keçmək üçün bircə yol hamamın yanıdır, oranı da kol basıb.Buranın yolu bağlanıbsa, qonşu Yaşargilin evinin yanından fırlanıb yolun o biri üzünə düşməliyəm.Oradakı setka qapı açarla bağlıdır, açarsa atamdadır.

*(Ardı səh. 8-də)*



"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

# Uşaqlığımın dalınca getmişdim "ev"imizə...



(Əvvəli səh. 7-də)

Bütün bunları düşünə-düşünə İlahənin göstərdiyi istiqamətə gedirəm.Bostana çatıram.Burdakı mənzərə məni dəhşətə gətirir.Ətraf geniş düzəngahlıqdan ibarətdir.Bəs qonşumuz Yelmargili bizdən ayıran hasar hanı?

Birdən elə bil yuxudan ayılıram. Sən demə mən indi dayandığım yer üzündəki yox, yaddaşımın hasarını adlayıb keçə bilmirmişəm...

Düzlənmiş bostan bomboşdur. Böyük gilas, ərik, albalı, alma, qoz ağaclarından əsər qalmayıb. Yeri ayağımın ucu ilə nə qədər qazıyıramsa, onların kötüklərinə, köklərinə də rast gəlmirəm.Bostanın çəpəri boyu sıralanmış nar ağacları da yoxdur. Kimsə yerdən iki qarış pöhrəni göstərir: "Bu nar ağacıdır deyəsən".

Yaxınlaşıb baxıram, - hə, nar ağacıdır!

Həyətdə adam boyuna qədər qalxmış kol-kos dəhlizə yaxın düşməyə imkan vermir. Küçəyə baxan otaqlar tərəfə keçirəm.Əlimi dağılmış pəncərəmizin yerinə qoyuram, içəri boylanıram.Torpaq, daş təpəciyindən başqa heç nə görmürəm.Evimiz bu qədər alçaqda deyildi axı.Mənim boyum heç vaxt pəncərəmizə çatmayıb.İndi necə olur, əlimi pəncərənin yerinə qoyuram, üstəlik evimizin içərisini də görə bilirəm?Huşum kəsmir boyumun uzandığını.Otaqların birindən gözümə qaraltı dəyir. İlahəyə deyirəm, bəlkə o mənim pianinomdu.Başını bulayır.

Özümlə vaxtıyla atamın aldığı stolüstü saatı da gətirmişəm. Markası "Mayak"dır.Mənimlə yaşıd olar hardasa.İşləmir.Uzun illərdən bəri bircə dəfə anam komaya düşəndə işləmişdi.Xeyrə yozsam da, xeyir olmamışdı.Saat dayanmış, anam da dünyasını dəyişmişdi.İndi onu evimizin pəncərə yerinə qoyuram.Əqrəblər saat yeddini göstərir. Və gözlənilməzlik baş verir: saat işləməyə başlayır.

Bu saat işləmirdi deyib hay-həşir salıram.Yəqin, heç inanmır mənə. Heç özüm də inanmıram.

Çəkiliş bitir. Həyətdəki koldan üç itburnu qoparıram, bir az da yasəmən, nar ağacının budaqlarından. Çıxacıxda hamamdan qopub yerə tökülmüş kafeldən, bir az da torpaqdan yığıram. Atamın, anamın qəbirlərinə səpməyə...

Hamı yavaş-yavaş yığışır. İstəyirəm bir az da qalım, həyətin ən dərin yerinə çəkilim. Axı mən Sevinc deyən kimi evimizi qabağıma qoyub doyunca ağlamadım. Heç olmasa, beş dəqiqə dayanıb keçmişin ən gözəl günlərini xatırlamadım. Hər şey qırıq-qırıq saniyələrlə gəldi keçdi gözümün önündən.

Maşına minirik.Geri çevrilib diqqətlə hər tərəfə baxıram, son dəfə gördüklərimi yaddaşıma köçürürəm.

Bizə təhkim olunmuş polislə sağollaşanda ondan soruşuram:

- Siz yəqin tez-tez gedib evinizə baxırsınız?

- Arada imkan olanda gedirəm. Daha çox yayda gedirdim, onda göydəki ulduzlar qəşəng görünür, uşaqlıqdakı kimi...

Mən də onun son cümləsini pıçıldayıram:

- Uşaqlıqdakı kimi...

Evimizdən, sonra məhlədən, lap axırda rayondan uzaqlaşırıq. Ürəyimdə bayaqkı polisə həsəd aparıram. Kaş imkan olardı, bir gecə həyətimizdə qalardım, bir daşın üstündə oturub havanın qaralmasını gözləyərdim, sonra elə torpağın üstünə uzanıb, gecəyə, göydəki ulduzlarla baxardım.

Uşaqlıqdakı kimi...

Bakıya gecə saat on birdə çatırıq. Ətrafda hər şey mənə yad gəlir. Elə bil kimisə Cəbrayılda qoyub gəlmişəm.Daha doğrusu, elə evimizi qoyub gəlmişəm.İllərdir sığalımıza, nəfəsimizə, səsimizə həsrət qalan evimizi yenə kimsəsizliyə tərk etdiyim üçün gizlin göz yaşı tökürəm.

Saatı qum doldurduğumuz kulyokdan çıxarıram. Əqrəblər hələ hərəkət edir. Onu masanın üstünə qoyuram. Ona üç dəqiqə qalıb.Saniyə əqrəbi 28-ci dəqiqənin üstündə dayanır.

Sinəmdəki kəpənək də harasa yoxa çıxıb.



Bəlkə də sinəmdən qopub həmişəlik evimizdə qalıb...

**Samirə ƏŞRƏFQIZI**

---

**Mən həmişə məni susduqlarımda axtarın deyirəm. Bu sözü boş-boşuna demirəm, çünki mən danışanda heç kim qulaq asmır. Susanda isə diqqətləri cəlb edirəm. Danışmağa başlayanda isə həyat boğaza gedib qıcıqlandıran bir tük kimi məni boğur. Kaş həmişə boğan tük parçası olsa. Çünki həqiqətin boğması daha dəhşətlidir**

# Qızcığaz

İndi oturmuşam.
Yalnızam otaqda
Bir mən, bir də sükutda gözləyən həqiqət.
İkimiz də bir-birindən dərin və qorxağıq.

Cəsarətim yetmir onunla üzləşməyə.
Bəlkə elə dünyam çəhrayı qalsın?
Yox, artıq nağıllara inanmaq vaxtı keçib. Əzab verir bu sükut mənə.
Axı niyə? Mən niyə bu qədər tez böyüdüm?
Hələ qaçacaq çox yolum varkən mən niyə qaçıram həqiqətlərdən?
Oxuyacağım nə qədər nağıl varkən mən niyə öz hekayəmi yazıram?
Qaça bilmədim, qaçdığım yollar çıxmazlardadır.

Bəlkə də, bəlkə də qaçmaq istəmədim.
Varsın bütün həqiqətlər gəlsin hesablaşmağa.
Mənim də deyəcəklərim var.
İçimə həbs etdiyim o qızcığaza sözüm var mənim.
Onu ordan çıxardıb yaşadacaqdım mən.
Əlindən tutub gəzdirəcəkdim səmaları.
Sözüm olsun o qızcığaza:
- Hər zərrən məndə olacaq.
Bəlkə bu gün, sabah, ya birigün, amma nə vaxtsa bu bədəndə yaşadacam səni!

# Mənim anam

**Hicranın köz qoxusu kimə necə təsir edirsə edir. Bu qoxu yaraya duz basmaqdan başqa heç nə etmir. Bu qoxunun açdığı yaralar müxtəlif olsa da, böyük əminliklə deyə bilərəm ki, verdiyi acı eynidir. Kimisi bu yaranı susaraq sarmalayır, kimisi də ah-fəğan çəkərək. Mənim anam səssizlər siyahısındadır. Zaman-zaman bir məqama fikir verdim ki, insan özündən asılı olmayaraq çox şeyi unuda bilir, məsələn, gülməyi. Mənim anama gülüşün necə yaraşdığını bilmirəm. Çünki onun gülüşünə şahid ola bilməmişəm.**

Üzündəki cizgilər sonu olmayan tikanlı daşlı yollar kimidir. Uşaqlığından ona qalan şıltaq ləkələr də var üzündə. Mən bunları sizə deyə bilirəm, çünki görürəm. Amma mən anamın qəlbini görə bilmirəm. İndiyə qədər də aldığı hər nəfəsi niyə sorğuladığında başa düşə bilmirəm. Bəlkə də keçmişi uzun qara libas kimi ayaqlarına dolaşır. Mən anamdan soruşmaq əvəzinə hər şeyi şəkillərdə tapırdım. Cəsarət edib də bir dəfə belə soruşa bilmədim ondan niyə? Sadəcə bu niyənin altında yatanlar məni qorxudurdu. Hər ağlayanda gizlicə onu izləyirdim. Yanına getməzdim. Sağ olsun, bu irsi qanun ondan mənə də keçdi. Mən də yıxılanda ona demədim, ağlayanda göz yaşımı ona sildirmədim və nəticədə mən də o qadın kimi oldum. İndi başa düşdüm hisslərini niyə gizlətdiyini. Çünki insanın hər yarası elə öz göz yaşı ilə qovrulanda yaxşı olur.

Qəlbindəki qardaş yarasını mənə də ərməğan edən anama minnətdaram.



**Aişə Abbaszadə,**
*9-cu sinif şagirdi*

---

*Şakir ƏLİFOĞLU*

## *Duyğulanmalar*

Ya çırağam, ya da iynə,
Özümə etmədim heç nə.
Üzü dönmüş bu zəmanə
Məni məndən aldı getdi.

Bəyaz üzüm qara bulud,
"Aygün" yağır gözlərimdən.
Aygün deyir məni unut,
"Aygün" doğur sözlərimdən!

*Demə güldüm üzünə, -*
*"gülümsən" dedi,*
*Demə baxdı zülfümə, -*
*"sünbülüm" dedi!*
*Demə zərifliyimə "quzumsan" dedi,*
*Demə "dinmədim",*
*"dilsiz bülbülüm" dedi!*

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

Cəbrayıl Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmova, qardaşı

**Arif Əfsər oğlu Alısoyun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti "Əmək" ordenli Oqtay Həziyevə, anası**

**Hakiyeva Minarə Temir qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

**Quliyev Eldar Xurşud oğlu, Məmmədov Qabil Hümbət oğlu, Allahverdiyev Mövlanverdi Məhəmməd oğlu, Əhmədli Sahil Fikrət oğlu, Əhmədov Qurban Mustafa oğlu və Hüseynova Validə Əmikişi qızının**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

---

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
CİF 1209641
H/h:55233080000
kod: 200123
VÖEN: 9900003611
SWIFT kod: AIIBAZ2X
M/h: AZ37NABZ01350100000000001944
Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112
VÖEN: 8200035441
Ünvan: AZ 1073, Bakı şəh.,
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
Telefon: (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

Əlyazmalar geri qaytarılmır.

Qəzet "Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 392**
**Tiraj: 2000**